Günəş Şərqdən doğur!
№ 115 (5396), 2021-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 2 iyul 2021-ci il (cümə)



## Turistlərin sevdiyi məkan...
Kənd qonaq evlərinin yaradılması biznesin inkişafına təkan verəcək

(Səh.8)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Çap mediasına dəstək layihəsinin qalibləri açıqlanıb

Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri açıqlanıb.

(səh.3)

## Qırğızıstanın xarici işlər naziri Azərbaycana gəlib



Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev Azərbaycana rəsmi səfərə gəlib.

(səh.3)

# Qələbə və münaqişənin həlli yeni bir vəziyyət yaradıb



## Prezident İlham Əliyev: "Ələt Azad İqtisadi Zonasında işləyəcək vətəndaşlarımızın əməkhaqqı yüksək olacaq"

(səh.2)

# Söz sahibi daha bizik!

## Regiondakı proseslər xeyrimizə işləyir

*Azərbaycan və Türkiyə Rusiyanı fakt qarşısında qoymalıdır ki, oyunlarından əl çəksin*



(səh.8)

## Zəngəzur dəhlizi tezliklə açılacaq
"Xoş olan odur ki, artıq İran da bu məsələdə maraqlıdır"

(səh.3)

## 4 gün istirahət olacaq
Qurban bayramı ilə bağlı iş günlərinin yeri dəyişdirilib

(səh.3)

## Pomidorlar zay oldu
Kənd təsərrüfatı ilə məşğul olanlar heç belə məyus olmamışdı

(səh.9)

## Daha 75 nəfər koronavirusa yoluxub, 1 nəfər ölüb
56 nəfər müalicə olunaraq sağalıb

(səh.9)



# Qələbə və münaqişənin həlli yeni bir vəziyyət yaradıb

## Prezident İlham Əliyev: “Ələt Azad İqtisadi Zonasında işləyəcək vətəndaşlarımızın əməkhaqqı yüksək olacaq”

Dünən Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. Dövlət başçısı Azərbaycan Televiziyasına müsahibə verib və mühüm məqamlara aydınlıq gətirib. Ölkə rəhbəri qeyd edib ki, Azərbaycan dünyanın bəlkə də ən təhlükəsiz ölkələrindən biridir. Ölkəmizdə təhlükəsizlik təmin edilir:

“Azərbaycanla daha yaxın əlaqələr qurmaq istəyən ölkələrin sayı durmadan artır. İnvestorlar üçün bu amil də çox önəmlidir. Azərbaycanda mədəniyyətlərarası dialoq, dini tolerantlıq məsələləri dünya miqyasında artıq nümunə kimi göstərilir. Biz istəyirik ki, bütün dünya ölkələri buraya gəlsinlər və investisiya qoysunlar. Bu amil də çox önəmlidir. Digər tərəfdən, ölkəmizdə mövcud olan sabitlik hər bir investor üçün əsas şərtlərdən biridir. Sabitlik olmayan ölkələrə heç kim sərmayə qoymur. Bu, aksiomdur. Sərmayə qoyuluşu baxımından cəlbedici ölkələrin təcrübəsinə baxsanız, bunu görərsiniz. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi, ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir”.

**“İnvestorlar üçün çox cəlbedici şərait yaradılıb”**

**Prezident vurğulayıb ki, müharibədə qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb:** ”İnvestorlar üçün çox cəlbedici şərait yaradılıb. Təkcə neft-qaz layihələrinə baxmaq kifayətdir görək ki, 1994-cü ildən bu günə qədər imzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib. Ancaq bir çox yerlərdə müəyyən mərhələ keçəndən sonra ölkələr şərtləri özlərinə daha uyğun tərzdə dəyişdirməyə cəhd göstərirlər. Biz bunu etməmişik. Çünki bunu etsək, investorları qaçırdacağıq. Yəni bütün bu amillər və əlbəttə ki, İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Hesab edirəm ki, uzunmüddətli sabitlik, sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir. Bütün bu amillərin mövcudluğu və bizim gələcəyimizə olan inam, əminəm ki, xarici sərmayədarları bu zonaya cəlb edəcək”.

**“Ələt Azad İqtisadi Zonası haqqında” qanun investorların maraqlarını təmin edir”**

**Ölkə rəhbəri vurğulayıb ki, ”Ələt Azad İqtisadi Zonası haqqında” qanun həm Azərbaycan dövlətinin, həm də investorların maraqlarını təmin edir:** ”İlk növbədə, biz təşkilati işləri görməli və elə bir şərait yaratmalı idik ki, investorları cəlb edə bilək. Aydın məsələdir ki, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkələrdəndir və belə ölkələrdə azad iqtisadi zonaları yaratmaq daha çətindir. Çünki əlverişli coğrafi vəziyyəti olan ölkələrdə bu zonalar çox böyük uğur qazanıb və ilk növbədə, coğrafi yerləşməyə görə. Ona görə bizə gəldikdə, bu coğrafi vəziyyəti nəzərə alaraq daha da səmərəli işləməli idik və investorlar üçün daha da cəlbedici şərtlər təqdim etməli idik”. Dövlət başçısı qeyd edib ki, ilk növbədə, qanunvericilik sahəsində işlər görülməli idi və o, 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılmasının sürətləndirilməsinə dair müvafiq Sərəncam imzalayıb, 2018-ci ildə qanun qəbul edilib: ”Bu, həm dövlət maraqlarımızı, həm investorların maraqlarını tam təmin edən çox mütərəqqi qanundur. Bu, çox önəmlidir. Çünki əgər qanunvericilikdə investorlar üçün hansısa qeyri-müəyyən məqamlar olsaydı, əlbəttə ki, onları buraya cəlb etmək mümkün olmazdı. Xüsusilə nəzərə alsaq ki, son illərdə dünyada cərəyan edən iqtisadi və maliyyə böhranı investisiyaların həcmini də azaldıb. Əlbəttə ki, pandemiya da dünya iqtisadiyyatına mənfi təsir göstərib. Belə bir tarixi məqamda bu addımı atmaq, əlbəttə ki, həm böyük cəsarət tələb edir, həm də bizim inamımıza əsaslanır”.

**“Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər”**

**Dövlət başçısı bəyan edib ki, xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər:** ”Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan verib. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir”. Prezident bildirib ki, xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər: ”Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcək. Eyni zamanda, burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə bax, burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi. Əlbəttə ki, bu ideya çoxdan müzakirə olunurdu. Ancaq bu layihənin reallaşdırılması üçün vaxt düzgün seçilməli idi, biz buna hazır olmalı idik və hesab edirəm ki, bu gün biz buna hazırıq”.

**“Çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb”**

**Dövlət başçısı qeyd edib ki, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb:** ”Bu gün qoyulan təməl artıq işlərin başlanmasına təkan verir. Artıq birinci görüləcək işlər planlaşdırıldı, 850 hektarın 60 hektarı artıq layihələndirildi, detallı, müfəssəl layihələndirmə işləri aparılıb. Bu gündən etibarən tikinti işləri başlanacaq, infrastruktur layihələri, biznes mərkəzi, gömrük-keçid məntəqəsi və lazım olan digər sahələrdə işlər görüləcək. Hesab edirəm ki, bir ildən sonra - gələn ilin iyul ayından başlayaraq, biz investorları qəbul etməyə hazır olacağıq”. Dövlət başçısı bildirib ki, o vaxta qədər Azad İqtisadi Zonanın rəhbərliyi həm ölkə daxilində, həm də xaricdə müxtəlif tədbirlər keçirəcək: ”Təqdimatlar keçirilməlidir, potensial investorlarla birbaşa təmaslar qurulmalıdır. Eyni zamanda, Azad İqtisadi Zonanın nümayəndələri müxtəlif ölkələrə ezam olunacaq, həmçinin xaricdən potensial investorlar dəvət ediləcək. Bununla bərabər, mən indi bizim bütün xarici ölkələrdəki səfirliklərə göstəriş verirəm ki, öz təmasları əsnasında bu zonanın yaradılması ilə bağlı potensial investorlara məlumat versinlər. Bizim bir çox ölkələrlə hökumətlərarası komissiyalarımız var. Bu komissiyaların rəhbərlərinə də tapşırıram ki, komissiyaların iclaslarının keçirilməsi zamanı Azad İqtisadi Zonanın nümayəndələri mütləq təmsil olunsunlar və bu mövzu mütləq gündəliyə salınsın. Bir daha demək istəyirəm, çünki bizim bir çox ölkələrlə belə komissiyalarımız var. Amma bu komissiyaların işini təhlil edərkən görürəm ki, xarici şirkətlər Azərbaycanda daha çox podratçı kimi fəaliyyətə cəhd göstərirlər. Yəni Azərbaycanda daha çox pul qazanmaq istəyirlər, bunun mənası budur. Biz etiraz etmirik. Çünki indi biz hətta azad edilmiş torpaqlara xarici podratçıları, kontraktorları cəlb edirik. Ancaq biz istəyirik ki, xarici investorlar Azərbaycana sərmayə qoysunlar. Çünki dövlət sərmayəsi artıq öz rolunu oynayıb”.

**“Azərbaycanda çox gözəl sərmayə iqlimi var, çox güclü kadr potensialı yaradılıb”**

**Ölkə başçısının sözlərinə görə, Azərbaycanda çox gözəl sərmayə iqlimi var, çox güclü kadr potensialı yaradılıb:** ”Bu gün dünyanın müxtəlif ölkələrində azad iqtisadi zonalar var. Qeyd etdiyim kimi, bəzi ölkələrdə bunu təbii şərait, coğrafi yerləşmə şərtləndirir. Açıq dənizlərə çıxışı olmayan ölkələrdə azad iqtisadi zonaların yaradılması təcrübəsi o qədər də uğurlu deyil. Biz uğurlu və uğursuz təcrübəni öyrənmişik, təhlil aparmışıq. Hesab edirik, bu gün Azərbaycanda bütün ilkin şərtlər var ki, investorları məhz bu zonaya cəlb edək. Hesab edirəm ki, ilk növbədə bu yerin coğrafi vəziyyəti əlverişlidir - dənizin kənarında, dəniz limanının böyründə yerləşir, kifayət qədər böyük ərazidir. İlkin mərhələdə artıq 60 hektarlıq yer inkişaf üçün hazırdır. Amma ümumiyyətlə, 850 hektar torpaq sahəsi ayrılıb. Bu torpaq sahəsinə bitişik olan torpaq sahələri də artıq müəyyən edilib ki, orada hər hansı bir tikinti aparılmasın, bu, gələcək inkişaf üçün lazımdır”.

**“Kadr potensialı var, bu da investorları cəlb edəcək”**

**Prezident bildirib ki, Azərbaycanda çox gözəl sərmayə iqlimi var:** ”Biz bunu həm neft-qaz layihələrinin icrası zamanı nümayiş etdirmişik. Həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılıb. Təsadüfi deyil ki, Dünya Bankının ”Doing Business” hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Yəni gözəl investisiya iqlimi investorları cəlb etmək üçün əlbəttə ki, əsas şərtlərdən biridir”. Dövlət başçısı, həmçinin son illər ərzində Azərbaycanda çox güclü kadr potensialı yaradıldığını vurğulayıb: ”Bu sahəyə xüsusi diqqət göstərilir. Biz dövlət xətti ilə minlərlə gənci dünyanın aparıcı ali məktəblərində oxutmuşuq. Onların böyük hissəsi Azərbaycana qayıdıb və müxtəlif yerlərdə çalışır. Neft konsorsiumlarında çalışan azərbaycanlılar artıq bizim intellektual potensialımızın inkişafına xidmət göstərirlər. Kadr potensialı var, bu da investorları cəlb edəcək”.

**İsmayıl Qocayev**

# Çap mediasına dəstək layihəsinin qalibləri açıqlanıb



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 15000 (on beş) min manat məbləğində maliyyə yardımı göstərilir

Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri açıqlanıb.

Medianın İnkişafı Agentliyindən "Şərq"ə verilən xəbərə görə, çap mediasına dəstək layihəsinin qalibləri aşağıdakılardır:

"525-ci qəzet"
"Şərq" qəzeti
"Səs" qəzeti
"Bakı-Xəbər" qəzeti
"Yeni Müsavat" qəzeti
"Yeni Azərbaycan" qəzeti
"Xalq Cəbhəsi" qəzeti
"Azernews" qəzeti
"Novoye Vremya" qəzeti
"Həftə içi" qəzeti
"Hürriyyət" qəzeti
"Ədalət" qəzeti
"Türküstan" qəzeti
"Olaylar" qəzeti
"Nedelya" qəzeti
"Hərbi and" qəzeti
"Unikal" qəzeti
"Paralel" qəzeti

**Maliyyə yardımının göstərilməsi:**

- Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 (beş min) manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15000 (on beş) min manat məbləğində maliyyə yardımı göstərilir;
- Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir;
- Qalib elan olunan qəzetin baş redaktoru müsabiqəyə müraciət ərizəsində qəzetinin eyniadlı veb-saytını əsaslı yeniləmək niyyətini ifadə etmişdirsə, maliyyə yardımı göstərilən 6 (altı) aylıq dövrün birinci ayında ona həmin veb-saytın əsaslı yenilənməsi məqsədilə 5000 (beş min) manat məbləğində vəsait ayrılır;
- Müsabiqədə qalib elan olunan qəzet redaksiyaları Agentlik tərəfindən maliyyələşdirilən hər nömrədə (həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlər həftədə bir dəfə, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlər isə həftədə beş dəfə olmaqla) Qaydalarda göstərilən sahələrdən hər hansı biri üzrə ən azı 500 (beş yüz) sözdən ibarət məqalənin dərc olunmasını təmin edirlər.

**Maliyyə yardımından istifadə:**

- Maliyyə yardımı göstərilən dövr ərzində qəzetin eyniadlı veb-saytının işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə vebsaytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir.

**Maliyyə yardımına əlavə:**

- Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 (beş yüz) abunəsi üçün aylıq 200 (iki yüz) manat, hər əlavə 1000 (bir min) abunəsi üçün isə aylıq 400 (dörd yüz) manat məbləğində bonusun verilməsi nəzərdə tutulur.

## Qırğızıstanın xarici işlər naziri Azərbaycana gəlib



**Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev Azərbaycana rəsmi səfərə gəlib.**

Bu barədə Trend Qırğızıstan səfirliyinə istinadən məlumat yayıb.

Qeyd olunur ki, nazir səfəri çərçivəsində Azərbaycanın rəsmi şəxsləri ilə görüşlər keçirəcək.

Xatırladaq ki, bu il mayın 28-də Minskdə baş tutan MDB hökumət başçılarının iclası çərçivəsində Azərbaycanın Baş naziri Əli Əsədov qırğızıstanlı həmkarı Uluqbek Maripovla görüşmüşdü. Maripov Qırğızıstanın Azərbaycanla hərtərəfli əməkdaşlığın gücləndirilməsinə ümid etdiyini söyləmişdi.

"Əminəm ki, iki ölkə xalqlarının sıx əlaqələri Qırğızıstan və Azərbaycan respublikaları arasında ən müxtəlif sahələrdə əməkdaşlığın inkişafına imkan yaradacaq", - Maripov demişdi.

Xatırladaq ki, iyunun 20-də Azərbaycana daha bir dost Orta Asiya ölkəsi - Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdı da səfərə gəlmişdi. Səfər çərçivəsində M.Tleuberdı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizin xarici işlər naziri Ceyhun Bayramovla görüşmüşdü.

## 4 gün istirahət olacaq

### Qurban bayramı ilə bağlı iş günlərinin yeri dəyişdirilib

**Baş nazir Əli Əsədov iş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında qərar imzalayıb.**

Qərara əsasən iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci il 19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerləri dəyişdirilir.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən iyulun 20 və 21-i ölkədə Qurban bayramı qeyd olunacaq.

Həmin günlər də Əmək Məcəlləsinə əsasən qeyri-iş günləri hesab edilir.

*Beləliklə iyulun 17-də ölkədə iş günü, 18,19,20,21-də isə qeyri-iş günləri olacaq.*

# Zəngəzur dəhlizi tezliklə açılacaq

## "Xoş olan odur ki, artıq İran da bu məsələdə maraqlıdır"

Xarici işlər naziri Ceyhun Bayramov QDİƏT üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxış edib. XİN başçısı Zəngəzur dəhlizinin açılması ilə bağlı mühüm məqamlara toxunub: "Üçtərəfli Bəyanata uyğun olaraq, silahlı qarşıdurmanın sona çatması ilə Azərbaycan münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya mərhələsinə qədəm qoydu.

Münaqişədən sonrakı dövrdə sülh, bərpa və yenidənqurma fəaliyyətlərinin davam etdirilməsi və məcburi köçkünlərin qayıtması Azərbaycan üçün mütləq prioritetdir. Münaqişənin həlli eyni zamanda regional əməkdaşlıq, inkişaf və tərəqqi üçün yeni perspektivlər açır.

10 Noyabr 2020-ci il birgə bəyanatı, bölgədə kommunikasiyaların açılmasını nəzərdə tutan 11 yanvar 2021-ci il tarixli üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan bəyanatı ilə tamamlandı. Bu tədbirlərin həyata keçirilməsi QDİƏT regionunun mühüm hissəsinin - Cənubi Qafqazın mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirəcək. Azərbaycan və Türkiyə arasındakı yeni əlaqə zolağı olan Zəngəzur dəhlizi təxminən otuz il-dir ki, mühasirədə olan Naxçıvan eksklavını Azərbaycan ilə birləşdirməklə yanaşı, əlavə olaraq mövcud ticarət və nəqliyyat əlaqəsinə xidmət edəcək. Kommunikasiyaların bərpası bütün bölgə üçün uduşlu bir vəziyyətdir və daha geniş Qara dəniz coğrafiyasının əhəmiyyətini artıracaq".

**Məsələ ilə bağlı "Şərq"ə danışan siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev tezliklə Zəngəzur dəhlizinin açılacağını söyləyib:** "Cənab Prezident iyunun 26-da Gülüstan sarayında hərbçilərlə görüşəndə nazirin vurğuladığı məsələlərə toxunmuşdu. Ölkə başçısı həm işğaldan azad olan torpaqlara mülki vətəndaşların qayıdışı, həm də Zəngəzur dəhlizi ilə bağlı önəmli açıqlamalar verib. Zəngəzur dəhlizi 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il üçtərəfli bəyanatda öz əskini tapıb. 11 yanvar bəyanatı bilavasitə Zəngəzur dəhlizinə həsr edilmişdi.



Ermənistanda keçirilən seçkilərdən sonra Zəngəzur dəhlizi ilə bağlı daha çox Rusiyanın agenti kimi tanınan Robert Koçaryan bunun əleyinə çıxış etdi. Təbii ki, bu da Rusiyanın müəyyən dairələrindən irəli sürülən fikirlərdir.

Xoş olan odur ki, İran artıq Zəngəzur dəhlizinin açılışında maraqlıdır. Həsən Ruhani nə qədər əngəl törətməyə çalışırdısa, artıq İbrahim Rəisi Zəngəzur dəhlizinin bilavasitə İranın gələcəyinə müsbət təsir edəcəyini yaxşı anlayır".

**C.Nuriyev qeyd edib ki, Rusiya tərəfi nə qədər Zəngəzur dəhlizinin açılmasına mane olmağa çalışsa da, buna nail olmayacaq:** "Zəngəzur dəhlizi yalnız Azərbaycan və Türkiyəyə yox, Ermənistana lazımdır. Çünki Ermənistan bir dövlət kimi özünü blokadaya salıb. Sevindirici hal budur ki, nəhayət, Azərbaycanın XİN başçısı həqiqətən danışmağa başlayıb.

Uzun illər ərzində bunun həsrətində idik. Keçmiş xarici işlər naziri ümumiyyətlə, bu məsələlərə toxunmurdu.

Amma Ceyhun Bayramov dövlətin maraqlarında olan məsələlərlə bağlı çıxışlar edir. Belə çıxışların davamlı olacağına inanıram".

**Yeganə Bayramova**

# Tarif Şurasının qərarını qənaətbəxş hesab etmək olar

## "Qənaət hesabına əslində daha çox sosialyönümlü tədbirlərin həyata keçirilməsinə şərait yaranacaq"



**Tarif (Qiymət) Şurasının növbəti iclasında Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılaraq müvafiq qərar qəbul edilib. SOCAR Şuraya müraciət edərək ölkədə təbii qazın topdansatış və pərakəndə satış qiymətlərinin artırılmasını təklif edib. Müraciətdə təbii qazın tarifinə yenidən baxılmasına səbəb kimi istehlakın artması, qaz təchizatının əhatə dairəsinin genişləndirilməsi və abonentlərinin sayının 18 faizə yaxın artması nəticəsində xərclərin yüksəlməsi göstərilir.**

Şura üzvlərinin yekdil qərarı ilə dövlətin həyata keçirdiyi sosial yönümlü siyasət əsas götürülərək əhalinin aztəminatlı hissəsinin mənafelərinə uyğun olan modelə üstünlük verilib. Belə ki, tarif tənzimləməsində optimal yanaşma tətbiq olunmaqla əhali abonentlərinin təxminən 51 faizini (5 milyon nəfər) əhatə edən istehlakçılar üzrə təbii qazın illik istehlak həcminin 1200 m3-dək (1200 m3 daxil) olan hissəsi üçün tarif dəyişdirilməmiş və hazırkı (1 kub metr üçün 10 qəpik) səviyyədə saxlanılıb. İstehlak edilən qazın 1200 - 2500 m3 (2500 m3 daxil) olan hissəsi üçün 1 kub metr üçün 20 qəpik, 2500 m3-dən çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib. Qeyd edilməlidir ki, əhali abonentləri üçün müəyyən edilən tarif sistemi böyük sahəyə malik yaşayış evlərini daha qənaətcil istilik sistemlərindən istifadəyə sövq edəcək.

Bildirilib ki, təbii qaz üzrə tarif tənzimlənməsi əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərməyəcək. Kənd təsərrüfatı və sənaye məhsullarının qiymətləri sabit qalacaq.

Sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi dəyişdirilməyib. Həmçinin qeyd olunub ki, təbii qaz üzrə tarif tənzimlənməsi elektrik enerjisinin qiymətinə təsir göstərməyəcək. Tarif dəyişikliyi əhalinin 51 faizinin orta aylıq xərcinə təsir etməyəcək və qazdoldurma məntəqələrinə verilən təbii qazın tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

**Qərarla bağlı "Şərq"ə açıqlama verən millət vəkili Cavid Osmanov bildirib ki, Tarif Şurasının qəbul etdiyi yeni qiymətlər ölkəmizdə aparılan uğurlu sosial siyasətə uyğunlaşdırılmış modeldir:** "Çünki qiymətlərə nəzər saldıqda görürük ki, aztəminatlı ailələrin istehlak etdiyi təbii qaz həcmi üçün qiymətlər dəyişməyib. Hesablamalara görə, 51 faiz abonentlər 1200 kub metrdən aşağı təbii qaz istifadə edir. Bu, ilk növbədə aztəminatlı ailələrin gələcəkdə istehlak edəcəyi təbii qazın qiymətinin artıq ödənilməsinə hansısa təsir etməyəcək. Beynəlxalq təşkilatların hesablamalarına görə, artıq 40-50 ildən sonra qaz ehtiyatları tükənmək üzrə olacaq. Bu baxımdan qənaət etmək vacibdir. Nəzərə alsaq ki, 1200 kub metrdən sonrakı qiymətlər artır, bu, qazı daha böyük həcmli və çox istifadə edən insanlara aiddir".

**Millət vəkili qeyd edib ki, belə qiymətlər büdcə vəsaitlərinə də qənaəti həyata keçirəcək:** "Çünki daha çox təbii qazın satışında gəlir əldə etdikdən sonra bu sahə ilə məşğul olan dövlət qurumları büdcə vəsaitləri ilə digər xərcləri qarşılaya biləcək. Beləliklə, ölkədə olan qənaət hesabına əslində daha çox sosialyönümlü tədbirlərin həyata keçirilməsinə şərait yaranacaq. Təbii ki, belə tədbirlər də aztəminatlı ailələrə ünvanlanacaq. Nəzərə alsaq ki, yeni qaz tarifləri ilə sənaye və kənd təsərrüfatı məhsullarının qiymətində artım olmayacaq. Deməli, Tarif Şurasının bu qərarını qənaətbəxş hesab edə bilərik. Verilən qərarlar ölkəmizdə aparılan uğurlu sosial siyasətin göstəricisidir".

**Yeganə Bayramova**







# Rəşad Məcid AYB-nin sədr müavini oldu

## Elçin Hüseynbəyli və Səlim Babullaoğlu isə katiblər təyin edilib

**Azərbaycan Yazıçılar Birliyində yeni kadr təyinatı olub.**

Bu haqda Yazıçılar Birliyinin mətbuat katibi Xəyal Rza məlumat yayıb. O bildirib ki, Rəşad Məcid AYB-nin sədrinin müavini, Elçin Hüseynbəyli və Səlim Babullaoğlu AYB katibləri təyin olunub.

Qeyd edək ki, bundan öncə Rəşad Məcid AYB-də gənclər üzrə katib, Elçin Hüseynbəyli sədrin müşaviri, Səlim Babullaoğlu isə bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin sədri olub.

*R. Məcid eyni zamanda AYB-də gənclər üzrə katib vəzifəsində də qalacaq.*

# Ekspert: "Delta" ştammı Cənubi Qafqazda yayıla bilər

**"Koronavirusun "Delta" variantının Cənubi Qafqaz regionunda yayılması ehtimalı yüksəkdir".**

Bunu "Report"a Ümumdünya Səhiyyə Təşkilatı Avropa bürosunun fövqəladə vəziyyətlər üzrə eksperti Katrin Smolvud bildirib.

Ekspert "Delta" ştammının Avropada və Rusiyada digər variantları sürətlə sıxışdırdığını, Cənubi Qafqaz və Orta Asiya regionlarında da bənzər halların gözlənilən olduğunu diqqətə çatdırıb. Azərbaycanın indiyədək koronavirusa yoluxma sayını azaltmaq istiqamətində çevik tədbirlər həyata keçirdiyini qeyd edən ekspert "Delta" ştammının da yayıldığını nəzərə almaqla ölkədə peyvəndləmə işlərinin davam etdirilməsinin vacibliyini vurğulayıb.

# Qarabağda erməni hərbçilərin meyitlərinin qalıqları tapıldı

## Onlar hərbi əməliyyatlar zamanı məhv ediliblər



**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bu gün aparılan axtarışlar zamanı ikinci Qarabağ müharibəsində məhv edilmiş daha iki erməni hərbçinin meyitlərinin qalıqları tapılıb.**

Bu barədə "Report" Ermənistan mətbuatına istinadən xəbər verir.

Məlumata görə, onlar hərbi əməliyyatlar zamanı məhv ediliblər. Aşkarlanan qalıqların şəxsiyyətləri məhkəmə-tibb ekspertizasından sonra məlum olacaq.

Qeyd edək ki, Ermənistanın Müdafiə Nazirliyi ölkənin ikinci Qarabağ müharibəsində məhv edilmiş və itkin düşmüş hərbçilərinin sayını gizlədir. Bununla yanaşı, Səhiyyə Nazirliyi də morqlarda saxlanılan və ekspertiza mərhələsində olan meyitlərin sayını ictimaiyyətdən gizli saxlayır.

Daha əvvəl bildirilib ki, Ermənistan ordusunun ikinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri tərəfindən məhv edilmiş 3 783 əsgər və zabitinin meyiti və qalıqları bu ölkənin Səhiyyə Nazirliyinin müvafiq orqanları tərəfindən məhkəmə-tibb ekspertizasından keçirilib, daha 81 nümunə DNT ekspertizası mərhələsindədir.

# Lavrov Qərbə açıq mesaj verdi

## "Bölgədə hər şey həll edilir, üçüncü tərəfə ehtiyac yoxdur"



**"Rusiya Prezidenti V.Putin Qarabağ məsələsinin Rusiya tərəfindən həll edildiyini növbəti dəfə Qərbə çatdırmaq istəyir və əlavə edir ki, sərhədlər məsələsində də əsas vasitəçi Moskvadır".**

Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, ABŞ-ın bölgədə yenidən aktivləşmək istəyi, humanitar məsələlərdə vasitəçi olaraq Gürcüstanı önə sürməsi rusları narahat edir: "Putin Bakıya əlavə alternativə ehtiyac olmadığının mesajını verir. Ermənistanda seçkidən sonra Azərbaycan rəhbərliyinin üçtərəfli razılaşmaların icrasının sürətləndirilməsi ilə bağlı başlatdığı proses fonunda bu təsadüfi deyil. Mümkündür ki, telefon söhbətində Əliyev Putinə proses ləngiyəcəyi təqdirdə, əlavə addımların mümkünlüyü haqda müəyyən mesajlar ötürə bilib. Buna paralel olaraq Lavrovun Antalyada Çavuşoğlu ilə qurduğu müzakirə masasına Qarabağın da daxil edilməsi diqqət çəkir. Lavrov bəyan etdi ki, Ankara ilə Bakı və İrəvanı yaxınlaşdırmaqla bağlı razılıq əldə ediblər. O cümlədən, Ağdamdakı Monitorinq Mərkəzinin fəaliyyətindən məmnundurlar. Lavrovun bu sözləri və Çavuşoğlundan fərqli olaraq, Qarabağ müzakirəsindən geniş bəhs etməsi də Moskvanın Qərbə "bölgədə hər şey həll edilir, üçüncü tərəfə ehtiyac yoxdur" mesajını çatdırmaq zərurətindən irəli gəlir. Bu, ictimaiyyətə açıqlanan məqamlardır, lakin bağlı qapılar arxasında Qarabağla bağlı nələr müzakirə oluna bilər sualı maraqlıdır".

Ekspertə görə, ruslar erməni qoşunların çıxarılması, sərhədlərin müəyyənləşməsi, nəticə olaraq, Ermənistanın Qarabağdakı mövcudluğunun aradan qaldırılmasından sonra bölgədə hansı formada qalmağı düşünür: Mümkündür ki, bu məsələ Bakı ilə yanaşı, Ankara ilə də müzakirə edilir. Bölgədə təkcə rusların hərbi mövcudluğu ilə barışmayan Türkiyənin Monitorinq Mərkəzinin fəaliyyətinin genişləndirilməsini istədiyi istisna deyil. Putinlə Ərdoğanın telefon söhbətində gündəmə gətirilən bu məsələlərin detalları Lavrovla Çavuşoğlunun masasında müzakirə olunub. Rusiya Şuşa Bəyannaməsinin detallarını bilmək istəyir, xüsusilə hərbi baza məsələsini. Burada ən mühüm məqam Moskvanın istəməsə belə Bakı və Ankara ilə anlaşmağa məcbur olmasıdır və bu, proseslərin inkişafını bizim maraqlarımıza uyğunlaşdırmağa imkan verir".

**İsmayıl Qocayev**

# Söz sahibi daha bizik!

## Regiondakı proseslər xeyrimizə işləyir



### Azərbaycan və Türkiyə Rusiyanı fakt qarşısında qoymalıdır ki, oyunlarından əl çəksin

Ötən gün Rusiya Prezidenti Vladimir Putin "Birbaşa xətt" verilişində Rusiya vətəndaşlarının suallarını cavablandırıb. V.Putin heç kimin - nə Ermənistanın, nə də Azərbaycanın, nə də Dağlıq Qarabağ sakinlərinin böhranın dərinləşməsində maraqlı olmadığını bildirib. Rusiya lideri söyləyib ki, dostluq şəraitində yaşasaq, yalnız insanların təhlükəsizliyi sahəsində deyil, həm də sosial sahədə həyatın normallaşdırılması üçün şərait yaradacağıq:

"Buna görə də, indi tərəflər problemlərin həlli üzərində işləyir. Xüsusi üçtərəfli işçi qrup yaradılıb, məsələlərin həlli üçün hər şeyi edəcəyik".

**Mövzu ilə bağlı suallarımızı cavablandıran BAXCP sədrinin müavini, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında deyib ki, Rusiya Prezidenti Vladimir Putinin "Qarabağ böhranının dərinləşməsində heç kimin maraqlı olmadığı" fikri, təbii ki, gerçəkliyinə ümid etdiyimiz fikirdir.** O qeyd edib ki, dünyada gedən geosiyasi proseslərin təhlili onu göstərir ki, hansısa regionda stabilliyin olmasını istəyən və istəməyən qüvvələr var: "Çünki hər bir siyasi oyunçunun öz marağı olur. Bu baxımdan, Putinin ifadə etdiyi fikrə bu maraqlar çərçivəsindən qiymət vermək lazımdır. Rusiyanın Cənubi Qafqaz siyasətinin mahiyyəti tarixən şovinist siyasət olub, xırda xalqları idarə etmək istəyi olub. Bu, Rusiyanın milli təhlükəsizlik məsələsi olub. Rusiya çalışır ki, öz sərhədlərini qorumaq üçün təhlükəsizlik zolağı onun sərhədlərindən mümkün qədər kənarda olsun. Rusiyanın mərkəzi ərazilərinin tarixi relyefi düzənlik ərazilərdən ibarət olduğu üçün təbii manelər, yəni dağlar dənizləri yoxdur. Tək manea meşələr və sərt soyuq iqlimdir. Bu baxımdan tarixən işğalçı qüvvələr asanlıqla onun ərazilərini işğal edirdilər. Buna görə rus rəhbərləri məcbur müdafiə xəttini Ural dağlarına, Orta Asiya və Qafqaz regionunda, eləcə də şimal dənizlərə və okeanlara qədər uzadıb ki, bu da Rusiyanın ərazisini ucsuz-bucaqsız edib. Bu baxımdan, Rusiya istəsə də nəinki Qafqaz, eləcə də digər ərazilərinin təhlükəsizliyini hansısa xoş münasibətlərə görə riskə ata bilməz. Rusiya bu məqsədlə öz xalqını ucsuz-bucaqsız ərazilərdə olan təbii xammala rağmən normal yaşada bilmir ki, öz geniş ərazilərini müdafiə etsin. Çünki bu, külli miqdarda maddi vəsait tələb edir. Bir sözlə, Putinin səsləndirdiyi fikir nə qədər normal fikir olsa da, inanılması məntiqlə zor məsələdir".

**A.Qasımov əlavə edib ki, regionda gedən proseslərin hara getməsinə Azərbaycanın bilavasitə təsiri şübhəsizdir:** "Proseslər bizim istədiyimiz formada gedir, çünki bu prosesləri başladan və idarə edilməsində əsas rol oynayan Azərbaycandır. Hesab edirəm ki, Qarabağ məsələsində yekun addımların atılması istiqamətində danışıqlar gedir. Bu, Azərbaycan-Türkiyə-Rusiya XİN və dövlət rəhbərlərinin başlayan görüşləri nəticəsində müəyyən ediləcək. Rusiya təbii ki, Ermənistan və Qarabağ ermənilərinin adından istifadə edib süni manevrlər edəcək ki, bu da Rusiyanın hər zamankı hərəkətidir. Bu baxımdan, Azərbaycan və Türkiyə Rusiyanı fakt qarşısında qoymalıdır ki, Rusiya Qarabağdakı oyunlarından əl çəksin. Rusiya Prezidentinin səsləndirdiyi fikirdən istifadə edib, bunu onların özünə qarşı istifadə etmək lazımdır. Yeni regionda stabilləşdirici, barışdırıcı, sülhyaradıcı addımları artırıb, Ermənistanla ikitərəfli əlaqələri bərpa etmək yolunda işlər görmək lazımdır. Bu vaxt Rusiya öz sözünün əleyhinə gedən addımlar atmaqdan çəkiləcək, çünki bu, onun özünə qarşı işləyəcək".

**Aynurə Pənahqızı**

## Sükutla keçmək olmaz

### "Tərtər hadisələri" ilə bağlı dördqatlı düyün açılmalıdır



**Üstündən xeyli müddət keçməsinə rəğmən, "Tərtər hadisələri" ilə bağlı müəmmalar hələ də aydınlığa çıxmayıb.**

İşgəncələr kimin sifarişi ilə olub? Kimlər haqlıdır? Haqsızlıq edənlər nə vaxt cəzalarını alacaqlar? Bax, bu suallar çoxlarını düşündürür. Beləliklə, xaotik məqamdan yararlanan bəzi qüvvələr manipulyasiyaya cəhd edirlər. Deməli, "Tərtər hadisələri" unudulmamalı, müvafiq qurumların prioriteti olmalıdır. Ən azından insanlıq naminə...

**Millət vəkili Zahid Oruc sözügedən hadisə barədə "Şərq"ə danışıb:** "Məlum olduğu kimi, ordu qapalı sistemdir. Deməli, hadisələrin tam miqyası ilə ictimailəşdirilməsi maraqlı qüvvələrin əlində dövlətə qarşı kampaniyanın tərkib hissəsinə çevrilir. Belə demək mümkünsə, dördqatlı düyün nöqtələri yaradılır. Təsadüfi deyil ki, KİV-dəki bütün açıqlamalar, yazılar, həmçinin xaricdə gedən informasiya savaşı izlənilir, dəyərləndirilir. Deməli, məsələyə həssas yanaşmalıyıq".

**Z.Orucun fikrincə, əsaslı addımlar atılmalıdır:** "Hadisənin, qurbanların üzərindən sükutla keçmək olmaz. Əgər bitərəf komissiya yaradılacaqsa, sözügedən ailələrin üzvləri də orada olmalıdırlar. Qalib ordu ilə bağlı belə xəbərlər ciddi addımların atılmasını zəruri edir. İlk növbədə isə ordudakı münasibətlər hüquqi müstəviyə keçirilməlidir".

**Kənan**

# Sentyabrda Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyacaq?

### *Baş nazir tezliklə yekun sülh sazişinə imza atacaq və danışıqlar masasına oturacaq*

Ermənistan mediası son günlərdə Azərbaycanla münasibətlərdə yeni mərhələnin başlanacağına az vaxtın qaldığını iddia edirlər. Paşinyanın yeni hökuməti formalaşdırmasından sonra yekun sülh sazişinin imzalanma vaxtını təxmin edən erməni ekspertlər də var. Erməni mətbuatında vurğulanır ki, Azərbaycanla imzalanması planlaşdırılan yekun sülh sazişinin mətni üzərində müzakirələr artıq başlayıb.

Hətta Paşinyanın bu ilin sentyabr ayında faktiki olaraq, Azərbaycanın ərazi bütövlüyünü tanıyacağı da deyilir. Amma sülh sazişi ilə bağlı erməni iddialarının nə dərəcədə reallığa söykəndiyini demək çətindir. Düzdür, artıq Ermənistanda seçki prosesi başa çatıb və 10 noyabr üçtərəfli sazişə imza atmış Paşinyanın öhdəliklərə əməl edəcəyi vurğulanır. Lakin yekun sülhün imzalanmasına əngəl yaradan xeyli amillər də var. Məsələn, sərhədlərin demarkasiya və delimitasiya prosesinin başa çatmaması, Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərimizdə hələ də erməni silahlı dəstələrinin qalması və başqa səbəblər Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin yubanacağından xəbər verir. Həm də görünən odur ki, başda Rusiyadakı bəzi dairələr olmaqla, Ermənistanın havadarları da prosesin tezliklə yekunlaşmasında, Cənubi Qafqazda sülh və sabitlik olmasında o qədər maraqlı deyillər. Ancaq istənilən halda Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması prosesi gedəcək. Tərəfləri qane edən yekun sülh müqaviləsinin imzalanması isə 2-3 il də çəkə bilər. Xatırladaq ki, iyunun 12-də Prezident İlham Əliyev xarici dövlətlərin nümayəndələri ilə görüşdə vurğulamışdı ki, rəsmi Bakının Ermənistanla sülh razılaşmasına dair danışıqlara başlamağa hazır olmaqla bağlı açıq bəyanatları Ermənistan hökuməti tərəfindən cavablandırılmır. Ölkə rəhbəri qeyd etmişdi ki, əgər Ermənistan sülh istəyirsə, onlar delimitasiya ilə bağlı bizimlə danışıqlara başlamalıdır: "Əgər onlar bunu etməsələr peşman olacaqlar. Beləliklə, biz Qafqazda yeni inkişaf mərhələsinə hazırıq, biz sülhə hazırıq və biz bunu nümayiş etdiririk".



**Vətəndaş Həmrəyliyi Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli deyib ki, Qarabağ münaqişəsinin tamamilə bitməsi və prosesin sona çatması yekunu sülh sazişinə bağlıdır. Partiya təmsilçisinin sözlərinə görə, bu, Nikol Paşinyanın, yaxud hansısa erməni rəhbərinin şəxsi istəyinə, arzusuna bağlı məsələ deyil:** "Əvvəla ortada Azərbaycanın möhtəşəm qələbəsi var. Qələbəni danmaq və görməzdən gəlmək erməni xalqını yenidən böyük itkilərlə nəticələnəcək savaşa cəlb etməkdir. Digər tərəfdən ən mühüm məqam odur ki, bölgədə maraqları və təsiri olan beynəlxalq güclər sülh sazişinin vacibliyini anlayıblar. Buna görə də sülh sazişinin imzalanması, Cənubi Qafqazda sabitliyin olması qaçılmazdır. Paşinyan müharibə reallığından çıxmış dövlət başçısıdır. O, erməni cəmiyyətində mövcud durumdan ən çox xəbərdar olan şəxsdir. Fikrimcə, daxili siyasi problemlərini həll etdikdən sonra hökumət başçısı kimi yekun sülh sazişinə də imza atacaq və danışıqlar masasına oturacaq. Rusiya da sülh müqaviləsində maraqlı olduğunu bəyan edir. Nə qədər yubadılsa da, əvvəl-axır sülh sazişi imzalanmalıdı".

**İsmayıl Qocayev**

# "Öpüşməyə birdəfəlik son qoyulmalıdır"

## Professor: "Əks halda, "Covid-19" olmasa da, digər viral infeksiyaların qurbanı olacağıq"



"SARS CoV2-in hazırda genom fərqliliyi göstərən dörd xüsusi aktiv ştammı olduğu bildirilir. Bunlar Britaniya (B.1.1.7), Cənubi Afrika (B.1.351), Braziliya (P.1) və Hindistan (B.1.617.2). ştammlarıdır. Onlar ÜST-nin tövsiyəsilə "Narahatlıq Törədən Variantlar" (VOC: Variants of Concern) adlandırılan xüsusi qrupda birləşdirilir. Bu ştammları ilk tapıldığı ölkələr üzrə ardıcıllıqla etiketləşdirmək məqsədilə, ÜST mayın 31-də onların Yunan hərfləri ardıcıllığı üzrə adlandırılmasını məsləhət bildi. Nəticədə Böyük Britaniya ştammı -"Alfa", CAR-da tapılan "Beta", Braziliyada tapılan "Qamma", Hindistan ştammı isə "Delta" ştammı adlandırıldı. Maraqlıdır ki, həmin tarixdən ÜST "Delta" ştammını xüsusi olaraq ayıraraq, onu "qlobal narahatlıq törədən" ştamm adlandırdı".

**Bu sözləri tibb elmləri doktoru, professor Musa Qəniyev deyib. Həkim qeyd edib ki, bir neçə gün əvvəl Hindistanın Maxaraştra ştatının 4 rayonunda 20 nəfərin "Delta" ştammından genom fərqliliyi göstərən koronavirus serotipinə yoluxduğu bildirildi və bunu "Delta-plyus" (AY.1) ştammı adlandırdılar. İddia olunur ki, bu ştamm daha yoluxucu və daha öldürücüdür:** "Antitellərin effektivliyini həm xəstəliyi keçirmişlərdə, həm də peyvənd olunmuşlarda kəskin şəkildə azaldır. Hazırda mövcud olan peyvəndlərə qarşı daha dözümlüdür. Corc Mayson Universiteti (ABŞ) əməkdaşlarının fikrincə, yeni virus ağciyərlərdə daha sürətlə və daha ciddi patoloji dəyişikliklər törədir. Hətta iddia olunur ki, Böyük Britaniyada bu ştamm ilə xəstələnən vaksinasiya olunmuş insanlar belə ölür. Belə bir statistika verilir: 7 nəfər ilk peyvənd dozasını alandan sonrakı 21 gündə, 12 nəfər isə ikinci dozadan sonrakı 14 gün ərzində dünyasını dəyişib. Rusiyada bir az da irəli gedib deyirlər ki, bu ştammlarla xəstələnmiş şəxsin, hətta küçədə səki ilə gedərkən, yanından keçəndə belə insan yoluxur. Bu halda əsas klinik simptomlar "Covid-19"-da müşahidə olunan klassik əlamətlərlə (boğaz ağrısı, əzələlərdə ağrı və s.) yanaşı, mədə-bağırsaq funksiyasının ağır dərəcədə pozulması, diareya, eşitmə pozğunluğu, xususən aşağı ətraflarda qanqrenaya səbəb ola bilən mikrotromboz halıdır. Şotlandiyada Edenburq Universiteti əməkdaşlarının fikrincə, bu ştammla yoluxma halında qospitalizasiya riski 1,85 dəfə artır və onun "Alfa" ştammla müqayisədə patoloji fəallığı 60 faiz yüksəkdir. Bildirmək istəyirəm ki, bütün bunlar, digər məqsədlərə xidmət edən, tamamilə yanlış yanaşma, yanlış düşüncə və yanlış təhlildir".

**M.Qəniyev əlavə edib ki, çünki "Delta" və "Delta-plyus" ştammları ilə yoluxanlar arasında göstərilən klinik əlamətlər üzrə əsaslı statistik təsdiq olunan fərqlilik yoxdur:** "Bu ştammların ilkin tapıldığı və vətəni hesab olunan Maxaraştra ştatı Hindistanın mərkəzi hissəsidir. Bu ərazi üzrə əhalinin sıxlığı çox yüksək (hər km-ə 1000 nəfərə yaxın), iqlim tropik musson, yayı isə çox isti olduğundan, istənilən infeksiya zamanı müşahidə olunan ilkin klinik əlamətlərdən biri, kompensator reaksiya kimi diareyadır. Digər tərəfdən, "Delta" və "Delta-plyus" ştammları fərqli yox, eyni mutantlardır. Onların yeganə fərqi K417N-də baş verən nöqtə mutasiyasıdır. Deməli, bu ştammın patoloji fəallığının yüksək olması reallıq yox, yalnız "xəyali istək və arzu" ola bilər. Çünki bu halda mövcud peyvəndlər modifikasiya olunmalı, onların yeni versiyaları hazırlanmalı və satışa çıxarılmalıdır. Yəni səbəb aydındır. Başa düşmək üçün sadəcə bir az düşünmək lazımdır".

"Tədqiqata görə, "Delta" ilə yoluxma riski xüsusən, flematologiyanın daha çox müşahidə edildiyi gənc, imkanlı uşaqlar arasında yüksəkdir"

*"Covid-19"-un mövcud mutant ştamlarına, o cümlədən "Delta" və "Delta-plyus" ştamlarına görə, hər hansı bir narahatlığa, gərginliyə, stressə və depresiyaya düşməyə, bədbinləşməyə və özünə qapanmağa heç bir əsas yoxdur. "Covid-19"-un özündən güclü "qatil" mutant ştammı yoxdur və ola bilməz"*

Professor qeyd edib ki, kiminsə tövsiyəsilə, məlum maraqlara xidmət edən, iqtisadiyyatımızı çökdürəcək heç bir məhdudiyyət və qapanmalara gedilməməlidir: "Əksinə, ölkə iqtisadiyyatının inkişafına təkan verən və əhalinin yaşamasına xidmət edən, bütün istehsal və qeyri-istehsal, habelə xidmət sahələrinin fəaliyyəti qeyri-şərtsiz olaraq bərpa olunmalı və məhdudiyyətlər aradan götürülməlidir. Bununla yanaşı, şəxsi gigiyena qaydalarına ciddi əməl olunmalı, zərurət yarandıqda, fərdi qoruyucu vasitələrdən istifadə olunmalı, xüsusən "abnormal" ünsiyyət vasitəsi olan flematologiyaya (öpüşməyə) birdəfəlik son qoyulmalıdır. Əks halda, "Covid-19" olmasa da, digər viral infeksiyaların qurbanı olacağıq. Diqqət edin, məhz bu səbəbdəndir ki, Birləşmiş Krallıqda "Covid-19"-a ("Delta" ştammı) yoluxma 12-20 yaş qrupları arasında artıq ən yüksək pik həddə çatıb. Digər tədqiqata görə, "Delta" ilə yoluxma riski xüsusən, flematologiyanın daha çox müşahidə edildiyi gənc, imkanlı uşaqlar arasında yüksəkdir. Rusiyada analoji hal, yəni virusun əsasən gənclər arasında yayıldığı rəsmən elan olunub. Bu, "Covid-19"-un gəncləşməsi deyildir, yalnız söylədiyim ünsiyyət forması ilə əlaqədardır. Son olaraq bildirirəm ki, "Covid-19"-un mövcud mutant ştamlarına, o cümlədən "Delta" və "Delta-plyus" ştamlarına görə, hər hansı bir narahatlığa, gərginliyə, stressə və depresiyaya düşməyə, bədbinləşməyə və özünə qapanmağa heç bir əsas yoxdur. "Covid-19"-un özündən güclü "qatil" mutant ştammı yoxdur və ola bilməz. Ən uzun RNT genomuna malik (30 min) virus olduğundan hər ay onun sələfindən genom fərqliliyi göstərən 2 mutant ştammı əmələ gəlməlidir və əmələ gəlir. Yuxarıda qeyd etdiyim kimi, hazırda mutant ştamların yunan hərflərilə adlandırılması qəbul olunduğuna görə, növbəti genom fərqliliyi göstərən mutantların adlandırılmasında da bu hərf ardıcıllığı saxlanılacaq. Hazırda üzərində müşahidə aparılan daha 5 mutant ştamm vardır ki, onları da müvafiq olaraq- Epislon, Zeta, Eta, Teta deyə adlandıracaqlar. Bunları ona görə deyirəm ki, gələcəkdə bu mutantların adını eşidəndə qorxmayasız. İkincisi və ən əsası isə kimlərin nə yazması və nə deməsindən asılı olmayaraq, yunan əlifbasında cəmi 24 hərf olduğundan və hər ayda genom fərqliliyi göstərən 2 mutant əmələ gəldiyinə görə, "Covid-19"-un artıq fəsli infeksiya statusu aldığına bir daha şübhəniz olmasın. Bilin ki, mutant ştamlar törətdiyi klinik əlamətlərdən bir və ya bir neçəsinə görə, "Covid-19"-dan fərqlənə bilər. Lakin letallıq və arzuolunmaz proqnozuna görə heç bir halda "Covid-19"-dan güclü və qorxulu ola bilməz. Belə bir mutantın yaranma ehtimalı yalnız 8-10 ildən sonra ola bilər. Elmin hazırkı coşqun inkişafını nəzərə alsaq, bu hal da praktik olaraq mümkün deyil. Yəni bu dərdli dünyada dərdlərinizin üstündən heç olmasa, "Covid-19" dərdinin az bir hissəsi də olsa, götürülsün".

**Aynurə Pənahqızı**



# Süpürgəçi qadın iş başında öldü

"Əmək müqaviləsi varsa və sığorta olunubsa, onun azyaşlı uşaqlarına aylıq olaraq kompensasiyalar verilməlidir"

**Lənkəran şəhər mənzil-istismar sahəsində süpürgəçi işləyən süpürgəçi qadın dünyasını dəyişib. Rayon sakini Kitabə Quliyeva elektrik cərəyanı vurması nəticəsində ölüb.**

Faktla bağlı Lənkəran Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 314.2-ci (səhlənkarlıq, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

**Baş verənlərlə bağlı fikirlərini "Şərq"ə şərh edən Vətəndaşların Əmək Liqasının sədri Sahib Məmmədov bildirib ki, istehsalatda belə hadisələr yaşanan zaman araşdırmalar aparılır, təqsirli şəxslər varsa, cinayət məsuliyyətinə cəlb edilir:** "Qadının əmək müqaviləsi varsa və sığorta olunubsa, onun azyaşlı uşaqlarına aylıq olaraq kompensasiyalar verilməlidir. Məsələn, ölən şəxsin 18 yaşına çatmayan, ya da 23 yaşına qədər təhsil alan və yaxud əlilliyi olan övladları varsa, mütləq şəkildə kompensasiyalar veriləcək. İstehsalat müəssisəsinin hansısa qanunsuzluğu müəyyən edilərsə, bu zaman cinayət işi başlanmalıdır. Bu işdə paralel olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də işin tədqiqatını aparmalıdır".

**Yeganə**

# Britaniya səfiri Azərbaycanda plastik qablarla bağlı qadağanı alqışlayıb



**Azərbaycanda iyulun 1-dən birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, bıçaq, qaşıq, boşqab və stəkanların idxalı, istehsalı, satışının qadağan edilməsini alqışlayırıq.**

Trend bildirir ki, bunu Böyük Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp tvitterdə yazıb.

Səfir bildirib: "Əla xəbərdir! Bu gün mühüm gündür. Hər il milyonlarla ton plastik okeanlara daxil olur. Plastikdən istifadəni azaltmaq, təkrar istifadə və təkrar emal vasitəsilə biz birlikdə ətraf mühiti qorumalıyıq. Yalnız birlikdə dəyişikliyə nail ola bilərik".

# Sumqayıtda 37 yaşlı kişi dənizdə batıb



**Sumqayıtda 37 yaşlı kişi dənizdə batıb. APA-nın yerli bürosunun məlumatına görə, hadisə Corat çimərliyində qeydə alınıb.** 1984-cü il təvəllüdlü İslamov Zakir Adil oğlu dənizdə batıb. Onun meyiti dənizdən çıxarılaraq aidiyyatı üzrə təhvil verilib. Aparılan araşdırma zamanı Z. Islamovun ötən gün batdığı məlum olub.

# 38 sayta maliyyə yardımı olacaq

## MEDİA saytlara dəstək layihəsinin qaliblərini açıqlayıb




Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektlərinin (veb-saytların) inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri açıqlanıb.

Medianın İnkişafı Agentliyindən "Şərq"ə verilən xəbərə görə, müsabiqənin qalibləri bunlardır: -"Qazet.az", "Bizim.media", "Azxeber.com", "Yenicag.az", "Sportinfo.az", "Sonxeber.az", "Qaynarinfo.az", "Sportal.az", "Azvision.az", "Tezadlar.az", "Sia.az", "Football-plus.az", "Cebhe.info", "Editor.az", "Bizimyol.info", "Apasport.az", "Avropa.info", "Bakupost.az", "7news.az", "Demokrat.az", "Offisideplus.az", "Minval.az", "Qol.az", "Moderator.az", "Yenisabah.az", "Publika.az", "Visiontv.az", "Qafqazinfo.az", "Day.az", "Sfera.az", "Anews.az", "Fanat.az", "Olke.az", "Ednews.net", "Modern.az", "Missiya.az", "Azpolitika.info", "Matbuat.az", "Bakivaxti.az".

Agentlik tərəfindən maliyyələşdirilən onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir. İctimai-siyasi məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) Agentlik tərəfindən maliyyələşdirilən dövr ərzində həftədə bir dəfə Qaydalarda göstərilən sahələrdən hər hansı biri üzrə hazırlanan materialın dərc olunmasını təmin edir. İdman məzmunlu informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) isə Agentlik tərəfindən maliyyələşdirilən dövr ərzində həftədə bir dəfə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" sahəsi üzrə hazırlanan materialın dərc olunmasını təmin etməlidir. Maliyyə yardımı göstərilən dövr ərzində onlayn media subyektinin (veb-saytın) müvafiq sayda işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir. Maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalamış onlayn media subyekti (veb-sayt) həmin müqavilənin qüvvədə olduğu müddət ərzində hər ayın sonu müvafiq maliyyə vəsaitinin hansı istiqamətlərə xərcləndiyini təsdiq edən sənədləri Agentliyə təqdim etməlidir.

**İsmayıl**



## Təlimlərin intensivliyi səbəbsiz deyil

*Azərbaycan Ordusu Türkiyə modelinə keçir*

**Azərbaycanla Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Bakıda iyunun 28-də başlayan "Mustafa Kamal Atatürk - 2021" birgə döyüş atışlı taktiki təlimləri davam edir.** Döyüş əməliyyatlarının aparılması zamanı iki ölkə ordularının bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsi məqsədilə keçirilən təlimlərdə müxtəlif təlim-döyüş tapşırıqları icra olunur. İyunun 30-dək davam edəcək təlimə 600 nəfərədək şəxsi heyət, 40-dək tank və digər zirehli texnika, 20-dək müxtəlif çaplı artilleriya qurğusu və minaatan, 7 ədəd döyüş və nəqliyyat helikopteri, 3 ədəd müxtəlif təyinatlı pilotsuz uçuş aparatı, 50-dək avtomobil texnikası cəlb olunub.

**Hərbi ekspert Ədalət Verdiyev təlimlərin əhəmiyyətini "Şərq"ə şərh edib:** "Bu, hər iki ölkənin döyüş əməliyyatları zamanı qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, habelə qərargahların və komandirlərin qərar qəbul etmə bacarıqlarının inkişaf etdirilməsi baxımından çox mühümdür.

Taborların döyüş əməliyyatları həm artilleriya bölmələri, həm də döyüş və nəqliyyat helikopterləri ilə dəstəklənib. Hazırlıqlara PUA-ların və 50-dək avtomobil texnikasının cəlb edilməsi təlimlərin hücum xarakterli olduğunu göstərir. Fikrimcə, təlimlərin intensivliyi artacaq. Azərbaycan Ordusunun Türkiyə modelinə keçməsi üçün buna ehtiyac var.

Onu da deyim ki, Türkiyədə "Anadolu qartalı-2021", Azərbaycanda isə "Mustafa Kamal Atatürk - 2021" təlimlərinin eyni anda keçirilməsi rəsmi İrəvana həm də siyasi mesaj kimi qiymətləndirilməlidir".

**Kənan**



*Feysbukda SÖZ HAVASI*

## "Noldu, sizin səmimiyyətinizə?.."

### Rasim İsmayılov: "Bir balanın vəfatının ildönümü olmamış o biri övladına toy edirsən?"



**"44 günlük müharibə vaxtı toplumumuzun səmimiliyinə inanmaq istədim. Amma çifayda. Savaşda şəhid olan gənclərə "balamdır, övladımdır, qardaşımdır" deyənlər neçə aydır toy məclislərinin davasını eləyirlər. Noldu, bir balanın vəfatının ildönümü olmamış o biri övladına toy edirsən?".** Bu sözləri feysbukda Əməkdar jurnalist Rasim İsmayılov yazıb. O qeyd edib ki, elə bil başqa vaxt qudasının ahıl yaşda qohumunun vəfat etməsinə görə toy mərasimlərini təxirə salan camaat deyilik: "Həm qeyri-səmimilikdir, həm də səviyyənin toy-xörək məclisi ilə ölçülməsidir. Çox da yüksək dəyərlərdən danışmaq boş şeydir. Reallığı qəbul edək. Heç kim toy məclislərinin vacibliyi, şadlıq evlərində çalışan personalın "dərdini çəkdiyi", toyla yasın qardaş olduğu və s. barədə deklamasiya söyləməsin. Öldürücü cavablarım var. Sadəcə yazmağa həvəsim yoxdur. Evlənməklə, ailə qurmaqla, nikah mərasimi ilə toy-xörək məclisini qarışdırıb şivən salmaq istəyənlərin nəzərinə. 25-30 yaşlı iki gənc iş yoldaşım nişanlılarını götürüb getdilər "zaqsa". Nikah kağızını da qoydular ciblərinə və neçə aydır xoşbəxt, şad-xürrəm yaşayırlar. Bu 4 gəncin əxlaqı mənim üçün bir çox ziyalının, ağsaqqalın, ağbirçəyin, ictimai xadimin əxlaqından çox yüksəkdə durur. Ürəyinizdə söydüklərinizi dilinizə də gətirə bilərsiniz. Baxın da".

**İsmayıl**

# Rus sülhməramlıları Qarabağda 5 ildən artıq qala bilməz

## Qarabağ separatçılarının açıqlamaları daxili auditoriya üçün hesablanıb

Rusiya sülhməramlı kontingenti hələ uzun müddət Qarabağda qalacaq və ermənilərin təhlükəsizliyini təmin edəcək. Bunu Qarabağdakı separatçıların tör-töküntülərindən olan Artak Beqlaryan deyib. Separatçı iddia edib ki, Rusiya sülhməramlılarının Qarabağda mövcudluğu 5 illə məhdudlaşmayacaq:



"Qərarın necə olacağını zaman, eləcə də böyük güclər öz fəaliyyətləri ilə göstərəcək. Əminəm ki, Rusiya sülhməramlıları uzun müddət qalacaq". Xatırladaq ki, iki gün əvvəl Ermənistan Təhlükəsizlik Şurasının baş katibi A.Qriqoryan da iddia etmişdi ki, Rusiya sülhməramlıları 5 illik müddət bitdikdən sonra da Qarabağda qalmağa davam edəcək. Ermənistan rəsmisi vurğulamışdı ki, guya, rusiyalı həmkarları bununla bağlı İrəvana "təminat" veriblər.

**Erməni tərəfinin rus sülhməramlıları ilə bağlı iddialarını "Şərq"ə təhlil edən Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov deyib ki, Qarabağ separatçılarının bu cür açıqlamaları daxili auditoriya üçündür.**

Ekspertin sözlərinə görə, hüquqi baxımdan Azərbaycan vətəndaşı olan ermənilər uzun illər Ermənistandakı mafiyoz qruplaşmalar tərəfindən əsir, ac-yalavac vəziyyətdə saxlanılırdı: "Erməni tərəfindən rus sülhməramlıları ilə bağlı açıqlamalar Xankəndi və ətraf rayonlarda qalan ermənilər arasında həyəcan və panika xofunu aradan qaldırmağa hesablanıb. Reallığı əks etdirməyən bu açıqlamaların heç bir praktiki əhəmiyyəti yoxdur. Artıq Ermənistan daxilində yaşayanlar da başa düşürlər ki, Azərbaycan böyük qələbəsi Qarabağ problemini birdəfəlik həll edib. Rusiya dövlət rəhbərliyi, o cümlədən hərbi kontingent və sülhməramlıların komandanı tərəfindən Rusiya sülhməramlı qüvvələrinin Qarabağda 5 ildən artıq müddətdə qalacaqları ilə bağlı hansısa rəsmi açıqlama yoxdur. Rəsmi bəyanat olmadığı təqdirdə separatçı ermənilərin avantürist açıqlamalar verməsi məntiqsizdir və rassional izahı yoxdur. İndiki məqamda belə ifadələr səsləndirmək Ermənistan daxilində baş verənlərdən fikri yayındırmaqla yanaşı, həm də İrəvanın nə qədər rəzil durumda olması və Rusiyadan asılılığını göstərir".

**İsmayıl Qocayev**



# Rusiya artıq gücün qarşısında baş əyir

## Lavrovun Antalya səfəri sübut etdi ki, Türkiyə və Azərbaycansız bölgədə heç bir inkişafa nail olmaq mümkün deyil

Antalya şəhərində Türkiyə və Rusiya Xarici işlər nazirləri Mövlud Çavuşoğlu ilə Sergey Lavrovun görüşü keçirilib. İki ölkənin xarici siyasət idarələrinin rəhbərlərinin təkbətək görüşü bağlı qapılar arxasında baş tutub. Təkbətək görüşdən sonra iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə danışıqlar başlayıb.

Nazirlər ikitərəfli münasibətlərin inkişaf perspektivlərini, eləcə də aktual regional və beynəlxalq məsələləri müzakirə ediblər. Rusiya və Türkiyə xarici işlər nazirlərinin danışıqlar masasında Cənubi Qafqaz, Yaxın Şərq və Cənubi Afrikada, eləcə də dünyanın bir sıra digər bölgələrindəki vəziyyət də olub. Sergey Lavrov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa ziyarətinə də münasibət bildirib. O, Ərdoğanın Şuşa səfərini təbii qarşıladıqlarını qeyd edib: ”Prezident Ərdoğanın Şuşa səfərinə Azərbaycan-Türkiyə arasında ikili münasibətlər çərçivəsində baxmaq lazımdır. Biz Rusiya olaraq bölgədə sülhün təsis edilməsi, ermənilərin və azərbaycanlıların yan-yana yaşaya bilməsi üçün, həmçinin bütün qonşular arasında etimad mühitinin yaranması üçün dəstəyimizi verəcəyik”. Lavrov həmçinin Ərdoğan və Prezident İlham Əliyevin regionun inkişafı üçün ”3+3” əməkdaşlıq platforması ilə bağlı təklifinin Rusiya tərəfində müsbət reaksiya doğurduğunu deyib: ”Mövlud Çavuşoğlu ilə razılaşdıq ki, hər kəs öz imkanından istifadə edib Azərbaycan və Ermənistanın barışığına, onlar arasında münasibətlərin normallaşmasına, azərbaycanlılar və ermənilərin bu torpaqda yanaşı, mehriban qonşular kimi yaşamaları üçün şərait yaratmağa kömək etsin. Onda əminik ki, bütün məsələlər, o cümlədən siyasi xarakterli məsələləri daha asan həll etmək mümkün olacaq. Bir daha qeyd edirəm ki, bizim əməkdaşlığımızın əlavə istiqaməti bu regionda nəqliyyat-kommunikasiya, iqtisadi əlaqələrin bərpa olunmasıdır. Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı nəticəli əməkdaşlıqdan məmnunuq”.

M.Çavuşoğlu da bəyan edib ki, Rusiya ilə ikitərəfli münasibətlərdə ciddi problem yoxdur. O qeyd edib ki, əsas müzakirə mövzusu Qarabağdakı vəziyyət olub.

**Türkiyə və Rusiya XİN başçılarının görüşünü “Şərq”ə dəyərləndirən ”Atlas” Araşdırmalar Mərkəzinin eskperti Samir Hümbətov deyib ki, mətbuata verilən açıqlamalardan belə qənaətə gəlmək olar ki, Cənubi Qafqaz məsələsi tərəflər arasında müzakirə olunmuş ən məhsuldar məsələlərdən biri olub.** Analitik nazir Sergev Lavrovun post-müharibə dövründə kommunikasiyalar məsələsinə toxunmasına diqqət çəkib. Onun fikrincə, Lavrovun belə açıqlama verməsi təsadüfi deyil: ”Rusiya XİN başçısı yaxşı başa düşür ki, Türkiyə və Azərbaycanın iştirakı və razılığı olmadan nəyinsə əldə edilməsi o qədər də inandırıcı deyil. Həm Ermənistan, həm də Rusiya üçün regionda mövcudluğunu qoruyub saxlamağın yolu iqtisadi və kommunikasiya əlaqələrinin qurulmasından keçir. Lavrov açıqlamaları ilə etiraf etmiş oldu ki, Türkiyə Azərbaycan üçün təminatçı ölkədir. Həmçinin, Azərbaycana qarşı hər hansı təzyiq göstərməkdənsə, Türkiyə ilə mehriban münasibət qurub, Türkiyənin vasitəsi ilə Azərbaycandan hansısa məsələdə razılıq almaq məcburiyyətindədirlər. Birincisi, Rusiya artıq regionda dominant mövqedə deyil. Regionda Türkiyə var və Rusiya onunla hesablaşmağa məcburdur. İkincisi, Azərbaycan Türkiyənin qırmızı xəttidir və o xətti tapdamaq olmaz. Üçüncüsü, əgər Rusiya Ermənistanı mövcud durumdan xilas etmək istəyirsə, həm Türkiyə, həm də Azərbaycanla dil tapmağı bacarmalıdır. Digər tərəfdən Zəngəzur dəhlizinin açılması və kommunikasiyaların qurulması sanksiyalar səbəbindən çətin vəziyyətdə olan Rusiya iqtisadiyyatının yenidən canlanmasına təkan ola bilər. Xüsusilə də ”3+3” formatında təklif edilmiş platforma daha məntiqəuyğundur. Nəhayət, Lavrovun çıxışından belə qənaətə gəlmək olar ki, Rusiya indi daha çox regionda mövqeyini qorumağa çalışır”.

**İsmayıl Qocayev**

# Turistlərin sevdiyi məkan...

## Kənd qonaq evlərinin yaradılması biznesin inkişafına təkan verəcək



İqtisadiyyat Nazirliyinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Şəkidə kənd qonaq evlərinin təqdimatını edəcək. Bunu Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib. "Bu ilin may ayında biz Dövlət Turizm Agentliyinin (DTA) və digər aidiyyəti qurumların iştirakı ilə "Kəndlərdə sahibkarlığın və özünəməşğulluğun inkişafı layihəsi" çərçivəsində İsmayıllı rayonunda 15 sahibkarlıq obyektinin və kənd qonaq evinin təqdimatını etmişik.

Tezliklə Şəkidə də oxşar layihəni həyata keçirəcəyik. Həmçinin digər turizm bölgələrində də kənd qonaq evləri təqdim ediləcək”, - deyə o qeyd edib.

Xatırladaq ki, Türkiyənin Trabzon bölgəsində belə kənd qonaq evləri var. Əvvəllər bu kənd qonaq evləri turistlərin ən çox gəldiyi məkan olub. Lakin 3 il əvvəl məhkəmə mübahisələri üzündən həmin evlər və oradakı obyektlər taleyin ümidinə buraxılıb. Əlverişli təbiətə malik olan Trabzona yenə də minlərlə turist axın edir. Lakin turistlər buranı ziyarət edib şəkil çəkdirdikdən sonra geri qayıdırlar. Çünki həmin ərazidə qalacaqları yer yoxdur. Yerli sakinlər yenidən həmin evlərin istifadəsini istəyirlər. Çünki bu həm yerli əhali, həm də turizmin inkişafı baxımından çox əlverişlidir. Bəs Azərbaycanda bu layihə özünü doğruldacaqmı?

**Mövzu ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən iqtisadçı-ekspert Rauf Qarayev qeyd edib ki, bu layihənin biznesin inkişafına təkan verməsi üçün ilk növbədə mövcud vəziyyəti dəyərləndirmək lazımdır. Yəni ilk növbədə həmin bölgədə sahibkarlığa icra hakimiyyəti tərəfindən münasibəti, icra hakimiyyətlərinin sahibkarlarla bağlı qarşılıqlı dəstək əlaqələri dəyərləndirilməlidir:** ”Bundan əlavə təhlükəsizlik baxımından yerli mühafizə bölmələrinin və sahibkarlığa dəstək ola biləcək digər qurumların iş prinsipi nəzərdən keçirilməlidir. Yəni yalnız ondan sonra bu layihələrin effektli və effektsiz olmasını bilmək olar. Çünki yuxarıdakı amillər 70-80 faiz iş prinsipinin həlli prosesini müəyyən edə biləcək amillərdi. Artıq sahibkar və ya sahibkarlıqla məşğul olmaq istəyən şəxs tam arxayın olduqdan sonra KOBİA-nın layihəsinə qoşula bilər. Qeyd edim ki, işin uğurlu olması üçün əksər halda yük bu işi başlayanın əlaqələrinin üstünə düşür. Əgər onun əlaqələri, ona mane olan amillərə təsir imkanları varsa, bu halda o, işin effektini azda olsa görə biləcək. Hesab edirəm ki, KOBİA bu işi görməzdən əvvəl yuxarıda sadaladığım amilləri nəzərə almalıdır. Yəni sahibkar və ya sahibkarlığa başlayan şəxs, görəcəyi və gördüyü iş üçün özündə inamı olmalıdır ki, o, rahatlıqla işini görsün”.

**“Qonaq evləri maldarlıqla məşğul olmağa imkanı olmayan şəxslər üçün də əlavə şərait yaradır”**

**İqtisadçı qeyd edib ki, kənd qonaq evlərinin oteldən əsas üstün cəhəti onun təbiiliyindədir:** ”Türkiyədə də buna bənzər evlər mövcuddur. Trabzonun Akçaabat bölgəsində belə kəndlər 1998-ci ildən fəaliyyətə başlayıb. Turizmin inkişafı baxımından həmin ərazilər olduqca münasibdir. Qeyd edim ki, qonaq evlərinin bir çox üstünlükləri var. Birincisi, şəxs dövlət tərəfindən öz evinin təmiri üçün dəstək alır. Bundan əlavə ona müəyyən lazımi avadanlıqlar verilir ki, orada gəlib qalan qonaq özünü öz evindəki kimi hiss etsin. Bundan əlavə, həmin kəndliyə qonaqları qəbul etmək üçün təlimlər keçirilir. Digər hal evin sakininin ərazini yaxşı tanıması və adət-ənənələrini bilməsi qonağa əlavə məlumatların verilməsində köməklik edir. Digər bir qeyd elə ərazilər var ki, orada otellərin, villaların tikilməsi mümkün deyil. Landşaft buna imkan vermir. Bu baxımdan da həmin ərazidə turistlərin qalması üçün qonaq evləri mövcud olmalıdır. Ən yaxşı qonaq evi isə yerli əhalinin gəlirinin, yəni şəxsin öz evini icarəyə aşağı qiymətlə (otellərə nisbətən aşağı qiymətlə) verməsidir. Bildiyiniz kimi, dağ kəndlərində insanlar əsasən maldarlıqla məşğul olurlar. Bunlar üçün də geniş yaylaqlar lazımdır. Qonaq evləri maldarlıqla məşğul olmağa imkanı olmayan şəxslər üçün də əlavə şərait yaradır. Digər bir amil dağ kəndlərinin infrastrukturu turizm sahəsinə daxildirsə, abadlaşması, qaz, işıq xətlərinin yenilənməsi, yol infrastrukturunun yaxşılaşdırılmasına da təkan verir. Bu baxımdan kənd qonaq evləri həm kəndli, həm də buna dəstək olan dövlət üçün effektli hesab olunur”.

**Aynurə Pənahqızı**



# Pomidorlar zay oldu

## Kənd təsərrüfatı ilə məşğul olanlar heç belə məyus olmamışdı

**"Fermerlər sərbəst vəsaitləri olmadığına görə gələn il daha az kənd təsərrüfatı məhsulları əkib becərəcəklər"**

**Bu ilin yanvar-may aylarında Azərbaycan 87 milyon ABŞ dolları dəyərində tomat (pomidor) ixrac edib. Bu barədə İqtisadi islahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın iyun sayında bildirilir. Sənədə əsasən,bu, ötən ilin eyni dövrü ilə müqayisədə 29,3 faiz azdır.**

Təkcə bu ilin may ayında isə Azərbaycan 44,7 milyon dollarlıq tomat (pomidor) ixrac edib ki, bu da illik müqayisədə 10,1 faiz azdır.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının bəzi növlərinin, yəni ixracatın azalması müşahidə olunur. Ekspert qeyd edib ki, ən ciddi azalma əsasən pomidor sahəsində nəzərə çarpır:** "Keçən ilə nisbətən doğrudan da pomidor sahəsində nəzərəçarpacaq azalma müşahidə olunur. Yəni təqribən üçdə bir azalma var. Bunun da əsas səbəbi Rusiya bazarı ilə bağlıdır. Azərbaycan pomidor istehsalçıları təəssüf ki, uzun onilliklərdir, hətta sovet dönəmindən bəri əsasən Rusiya bazarını hədəf götürüblər, yəni o bazara fokuslanıblar. Rusiya bazarında isə zaman-zaman Rusiyada qaynaqlanan problemlər yaşanır. Həmçinin sərhədlər bağlı oldu, pomidor ixracatına bir sıra qadağalar qoyuldu. Bilirsiniz ki, bu qadağalar bir neçə ay qüvvədə qaldı və bu da nəticədə pomidor ixracatına ciddi şəkildə mənfi təsir göstərdi, o cümlədən də fermerlərə çox ciddi ziyan vurdu".

*Ekspert qeyd edib ki, pomidor istehsalı bir çox bölgələrimizdə fermerlərin əsas qazanc mənbəyidir:* "Bu il satışların kəskin azalması, həm qiymətin ucuzlaşması fermerlərə kifayət qədər mənfi təsir göstərib. Habelə, daxili bazarda ucuzlaşma oldu. Nəzərə almaq lazımdır ki, bu fermerlərə çox böyük ziyan vurduğuna görə, onlar gələn il əldə sərbəst vəsaitin olmadığına görə daha az kənd təsərrüfatı məhsulları əkib becərəcəklər. Bu da ki,



növbəti illərdə daha kütləvi və kəskin bahalaşmaya səbəb ola bilər. Yəni fermerlər üçün də kifayət qədər komfortlu qiymət koridorları olmalıdır. Amma ixracatın azalmasının əsas səbəbi dediyim kimi, Rusiya bazarında yaradılan süni maneələrdir. Bunun qarşısını almaq üçün Azərbaycan öz ixracat bazarlarını çoxşaxəli modelə çevirməyi bacarmalıdır. Yəni tək Rusiya bazarından asılılıq kifayət qədər böyük problemlər yaradır".

**Aynurə Pənahqızı**



## Daha 75 nəfər koronavirusa yoluxub, 1 nəfər ölüb

### 56 nəfər müalicə olunaraq sağalıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 75 yeni yoluxma faktı qeydə alınıb, 56 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, 1 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 336 122 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 330 275 nəfər müalicə olunaraq sağalıb, 4 975 nəfər vəfat edib, aktiv xəstə sayı 872 nəfərdir.

*Ölkədə son sutka ərzində 8828, hazırkı dövrədək isə 3 758 131 test aparılıb.*

**Kənan**

# Xəstəxana və tibb mərkəzlərinin birləşdirilməsi təbiidir və gərəklidir

## "Belə olduğu halda nəzarət mexanizmlərini daha effektiv həyata keçirmək mümkün olacaq"

İcbari tibbi sığortanın ölkə üzrə tətbiqi səhiyyə sistemində islahatların başlanmasına yol açıb. Paytaxtda, həmçinin bölgələrdə fəaliyyət göstərən xəstəxana və tibb mərkəzlərinin birləşdirilməsi barədə bir müddət əvvəl məlumat verildi. Bildirildi ki, ayrı-ayrı tibb mərkəzləri və xəstəxanaların xidmət istiqamətinə uyğun birləşdirilməsi icbari tibbi sığortanın tətbiqi nəticəsində baş verir. Hazırda isə şəhər poliklinikalarında struktur dəyişikliyi aparılır. Məlumatda bildirilir ki, şəhər poliklinikaları iki hissəyə bölünəcək. İlkin səhiyyə xidməti göstərənlər bir poliklinikada, dar ixtisas sahibləri isə digərində cəmləşəcək.

**Bunu 1 saylı Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərova deyib. Onun sözlərinə görə, burada əsas məsələ sahə prinsipinə əməl olunmasıdır. Belə ki, sahə pediatrları, terapevtlər və digərlərinə əlçatanlığın təmin olunması üçün onlar inzibati ərazi üzrə bərabər bölüşdürüləcək:**

"Ailə Sağlamlıq Mərkəzi olmağa uyğun olmayan poliklinikalarda isə dar ixtisas sahibləri birləşəcək və öz rayonları üzrə tibb mərkəzlərinə tabe olacaqlar. O cümlədən Səbail, Yasamal və Nəsimi rayonlarının ərazisində yerləşən poliklinikaların dar ixtisas həkimləri Kliniki Tibbi Mərkəzə tabe ediləcək".

*Mərkəz direktoru qeyd edib ki, Bakı, Sumqayıt və Abşeronda yerləşən tibb müəssisələrində həyata keçirilən struktur dəyişiklikləri isə demək olar, başa çatıb. Struktur dəyişikliyinin mövcud iş rejiminə heç bir təsiri yoxdur və proses ixtisarlarla müşayiət olunmayacaq:*

"Bir neçə tibb müəssisəsinin birləşməsi nəticəsində ixtisar olunma faktı yoxdur. Sadəcə, müəyyən şöbələr birləşdiriləcək optimallaşma prosesi gedir. Bir sözlə, ixtisar yoxdur və gələcəkdə də olmayacaq".

Səhiyyə sahəsindəki yeniliklərdən biri 11 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının bazasında yaradılan Nizami Tibb Mərkəzinin fəaliyyətə başlamasıdır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev Tibb Mərkəzinin fəaliyyəti ilə tanış olub. Beşmərtəbəli tibb müəssisəsi 74 çarpayılıqdır. Burada təcili tibbi yardım, poliklinika, laboratoriya, funksional diaqnostika, stasionar nevrologiya və reanimasiya şöbələri fəaliyyət göstərir. Bütün şöbələr müasir tibbi avadanlıqlarla təchiz olunub. Funksional diaqnostika şöbəsində yeni nəsil kompüter tomoqrafiya, rentgenoqrafiya və flüoqrafiya aparatları var. Reanimasiya şöbəsində insultlu xəstələrə tibbi xidmətlərin göstərilməsi nəzərdə tutulub. Tibb müəssisəsinin Laboratoriya şöbəsində kliniki və biokimyəvi analizlərin aparılması mümkündür.



**"Struktur dəyişiklikləri sahə həkimlərinin də ərazilər üzrə bərabər paylanmasına şərait yaradacaq. Məqsəd icbari tibbi sığortanın effektiv tətbiqidir"**

Qeyd edək ki, Nizami Tibb Mərkəzi özündə dörd tibb müəssisəsini birləşdirir. Bunlar 11 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, 1 nömrəli Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası, 7 nömrəli Doğum Evi və "Azərsutikinti" Xəstəxanasıdır. Sözügedən tibb müəssisələrinin fəaliyyəti Nizami Tibb Mərkəzi tərəfindən həyata keçiriləcək.

Struktur dəyişiklikləri hansı irəliləyişlərə rəvac verəcək?

**Məsələ ilə bağlı "Şərq"ə danışan Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov qeyd etdi ki, icbari tibbi sığortanın tətbiqi zamanı bu kimi struktur dəyişikliklərinin olması, xəstəxana və tibb mərkəzlərinin birləşməsi təbiidir və gərəklidir:**

- İcbari tibbi sığortanın tətbiqi zamanı nəzarətin mərkəzləşdirilmiş formada həyata keçirilməsinə ehtiyac yaranır. Ona görə də tibb müəssisələrinin birləşdiriləcək çoxfunksiyalı, yaxud da konkret səhiyyə xidməti göstərəcək mərkəz və tibb müəssisələrinin yenidən təşkili məqsəduyğundur. Hesab edirəm ki, belə olduğu halda nəzarət mexanizmlərini daha effektiv həyata keçirmək mümkün olacaq, bu da vətəndaşlara tibbi sığorta sahəsində lazımi dərəcədə xidmət göstərilməsini təmin edəcək. Məsələn, Klinik Tibbi Mərkəz çoxşaxəlidir, tibbin bütün sahələrini əhatə edir. Amma məsələn, uşaq səhiyyəsi ilə bağlı olan tibb müəssisələri yalnız bu yöndə ixtisaslaşıb. Belə tibb mərkəzlərinin birləşdirilməsi və ya bir sahə üzrə ixtisaslaşması vətəndaşlara daha yüksək tibbi xidmət göstərilməsi məqsədi daşıyır.

**Ş.Məmmədov şəhər poliklinikalarında aparılan struktur dəyişikliyini də izah etdi:**

- Məsələn, Nizami Tibb Mərkəzi yaradılıb və onun daxilində 4 tibb müəssisəsi mərkəzləşmiş qaydada fəaliyyət göstərəcək. Poliklinakalarla bağlı da eyni proses aparılır. Səbail, Yasamal, Nəsimi rayonu ərazisində yerləşən poliklinikalar Kliniki Tibbi Mərkəzə tabe olacaq. Dar ixtisas həkimləri (tibbin konkret bir sahəsi üzrə ixtisaslaşmış həkimlər) ilə ilkin tibbi yardım göstərən həkimlər fərqli poliklinikalarda cəmləşəcək. Vətəndaş biləcək ki, hansı xidmət üzrə hara müraciət etməlidir. Bu, optimallaşma prosesidir və tibbi xidmətin daha yüksək olmasına imkan yaradır. Bəzən sahə poliklinikalarında sahə həkimi çatışmazlığı yaranırdı. Amma struktur dəyişiklikləri sahə həkimlərinin də ərazilər üzrə bərabər paylanmasına şərait yaradacaq. Məqsəd icbari tibbi sığortanın effektiv tətbiqidir. Əsas bir də budur ki, həkimlərin ixtisarı aparılmır, əksinə, ixtisaslı həkim kadrlarına ehtiyac yaranır.

**Məlahət Rzayeva**

# “Qərbin təzyiqi Kremlin arzusuna mane olur”



Rusiya Prezidenti Vladimir Putin onlayn brifinq zamanı bildirib ki, heç kəs Dağlıq Qarabağda böhranının daha da böyüməsində maraqlı deyil. "Rusiya bu ciddi böhranın həllində müəyyən bir rol oynayıb.

Dostluq şəraitində yaşasaq, yalnız insanların təhlükəsizliyi sahəsində deyil, həm də sosial sahədə həyatın normallaşdırılması üçün şərait yaradacağıq. Silahlı qarşıdurmanın yenidən başlayacağı narahatlığı ilə yaşamaq mümkün deyil" - Rusiya lideri deyib. Onun sözlərinə görə, hələ də infrastrukturun bərpası, sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı məsələlər qalır: ”İndi bunun üzərində iş gedir, üçtərəfli işçi qrup yaradılıb. Bölgədə normal münasibətləri bərpa etmək üçün hər şeyi edəcəyik”.

## *Samir Hümbətov: “5 ilə sülhməramlılar tamamilə regiondan çıxacaq”*



Maraqlıdır ki, indiyədək ”suyu bulandıran” Moskva indi, doğrudan da səmimidir? Necə deyərlər, xeyirdimi?!

”Şərq” olaraq bu barədə siyasi analitik Samir Hümbətovla müzakirə apardıq:

**- Putinin sözügedən bəyanatını necə qiymətləndirirsiniz?**

- Bütün imperiyaların, o cümlədən Rusiyanın dedikləri ilə etdikləri heç vaxt üst-üstə düşmür. Diqqətlə fikir versək, görərik ki, Cənubi Qafqazda, Ukraynada, Gürcüstanda vəziyyəti kritikləşdirən məhz Kremldir. Çünki həmin dövlətlərin öz orbitindən çıxmasını istəmir. Amma fikrimcə, Rusiya Cənubi Qafqazdan çıxacaq. Bu, gec-tez olacaq.

**- Rusiya bu açıqlama ilə Qarabağdakı sülhməramlıların sayını artırmağa çalışa bilərmi?**

- Bu, şimal qonşumuzun ən böyük arzusudur. Lakin ehtimal azdır. Əvvəla, onsuz da Qarabağdakı rus hərbçiləri faktiki olaraq deyildiyindən daha çoxdur. İkinci bir tərəfdən isə Türkiyə amili və Qərbin təzyiqi Rusiyanın bu arzusuna mane olur. Ümumiyyətlə, Qərb istəyir ki, sülhməramlılar beş il tamam olduqdan sonra ərazidən çıxarılsın. Rusiya isə bunun əksinə çalışır. Amma məncə, uzaqbaşı 5-7 ilə sülhməramlılar tamamilə regiondan çıxacaq.

**- Ermənistanda Paşinyanın yenidən hakimiyyətə gəlməsi proseslərə necə təsir edəcək?**

- Bu, Rusiyanın Cənubi Qafqaz siyasəti üçün sonun başlanğıcı deməkdir. Kreml rəhbərliyi tərəflər arasında yekun sülh müqaviləsinin imzalanmasında maraqlı deyil. Əks halda regiondakı mövcudluğunun yoxa çıxacağını bilir. Zəngəzur dəhlizinin indiyədək açılmaması da Moskvanın diktəsidir. Çünki belə olsa, Ermənistan Azərbaycan və Türkiyə ilə əməkdaşlığa başlayacaq.

**- Elə isə şimal qonşumuzun istədiyi nədir?**

- Regionda hazırkı durumun qorunub saxlanması. İndiki vəziyyət Rusiyanın ürəyincədir. Ümumiyyətlə, nə qədər bunu dildə desə də, Moskva sülh tərəfdarı deyil.

**Kənan Novruzov**



## “Mən nə dediymi bilirəm"

### Erməni general: “Mən dövlət sirrini yaymamışam”

**Ermənistan Silahlı Qüvvələri Baş Qərargahının keçmiş rəisi, hərbi nəzarət xidmətinin sabiq rəhbəri, general Movses Akopyan dövlət sirrini yaymadığını iddia edib.**

”Report” xəbər verir ki, o, bu barədə ”Sputnik Armeniya”ya bildirib.

”Mən nə dediymi bilirəm. Mənim sözlərimdə heç bir dövlət sirri və şərh ediləcək bir məsələ də yoxdur”, - Akopyan deyib.

O, hazırda Qarabağdadır və müstəntiqlər çağırsa, gedəcəyini vurğulayıb.

Bir müddət əvvəl Ermənistan Milli Təhlükəsizlik Xidməti general Akopyana dövlət sirrini yaydığına görə ittiham irəli sürüb və təqsirli şəxs qismində cinayət işinə cəlb edib. O, ittihamı qəbul etməyərək qeyd edib ki, istintaq prosesini gözləyəcək.

*Qeyd edək ki, separatçıların ”baş qərargahının keçmiş rəisi” Movses Akopyan 2020-ci il noyabrın ortalarında istefa verib. O, həmin ayın 19-da keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Qarabağda ”İskəndər”dən istifadə ediblər, ancaq onun hara atıldığını deyə bilməz. O, ”Su-30 CM” çoxməqsədli qırcıların alınmasını mənasız adlandırmışdı.*

*A.Movsesyan Ermənistan hakimiyyətinin hərbi texnika alınması planını da tənqid etmişdi. O, alınan hava hücumundan müdafiə sistemlərinin yararsız olduğunu söyləmişdi.*

## Paşinyan ən yaxın silahdaşını işdən qovdu



**Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan cümə axşamı Nazirlər Kabinetinin aparat rəhbərini, ən yaxın silahdaşı hesab edilən Arsen Torosyanı işdən çıxarıb.**

Milli.Az xəbər verir ki, bu haqda məlumatı Ermənistan hökumətinin mətbuat xidməti yayıb. Mənbə yazır ki, həmin vəzifəyə Paşinyanın baş məsləhətçisi Arayik Arutyunyan gətirilib. Keçmiş Səhiyyə naziri Arsen Torosyan bu ilin yanvarında baş nazir aparatının rəhbəri təyin edilib. Həmin vaxt Arayik Arutyunyan Təhsil, Elm, Mədəniyyət və İdman naziri vəzifəsindən çıxarılaraq Paşinyanın baş məsləhətçisi olub. Torosyan və Arutyunyan Paşinyanın rəhbərlik etdiyi ”Vətəndaş müqaviləsi” partiyasının idarə heyətinin üzvləridir.

## Rusiyanın Çukotka regionuna qar yağıb



**Rusiyanın Çukotka regionuna qar yağıb.**

APA-nın Rusiya bürosunun xəbərinə görə, bu barədə Çukotka regionu hökumətinin ”Instagram” səhifəsində məlumat verilib.

# Ermənistanda iqtisadi durum fəlakətin astanasındadır

## *Ölkədə sülh və əməkdaşlıq istəyənlərin sayı daha da artacaq*

Ermənistanın Maliyyə naziri Atom Cancuqazyan parlamentdəki çıxışı zamanı dövlət borcunun nominal və nisbi həcmi idarə olunacaq həddi keçdiyini deyib. O bildirib ki, Ermənistanın borcu 7,969 milyard ABŞ dollarına çatıb. Nazirin sözlərinə görə, 5,593 milyard dollar hökumətin xarici borcudur. Bu borcun qeyri-rezidentlərdən olması və əsasən valyuta ilə əks olunması risk yaradır. Yəni Cancuqazyan əslində ölkəsinin borc içində batdığını etiraf edib. Maraqlıdır, revanşist iddialarla çıxış edən siyasətçilərin bundan xəbəri oldumu?

**ReAl Partiyasının sədr müavini, iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə açıqlamasında mövcud vəziyyəti təhlil edib:** ”Dünyada xarici borcun Ümumi Daxili Məhsulun (ÜDM) 60 faizini keçməsi vəziyyətin təhlükəli olduğunu göstərir. Ermənistanda isə bu borc 80 faizə qədərdir. Deməli, bu ölkə iqtisadiyyatı kifayət qədər zəifləyib. Vəziyyət tədricən daha da pisləşəcək. Bu, düşmənə siqnal olmalıdır”.



**N.Cəfərli revanşistləri ”qış yuxusundan oyanmağa” dəvət edib:** ”Təəssüf ki, Ermənistan cəmiyyətinin 30-40 faizi qisaşçıdır. Bu sifarişə cavab verən siyasətçilər də var. Lakin ölkədəki sosial-iqtisadi vəziyyət, habelə qonşularla olan münasibət revanş cəhdlərini İrəvan üçün fəlakətə çevirə bilər. Məsələ ondan ibarətdir ki, Ermənistanın hətta müttəfiqi və ən yaxın müdafiəçisi Rusiya ilə də fikir ayrılığı var. Məhz bu nöqteyi-nəzərdən düşmənin nəyəsə cəhd edəcəyinə inanmıram. Əksinə, sülh və əməkdaşlıq istəyənlərin sayı tədricən artacaq. Beləliklə, qonşu ölkələrlə normal münasibətlər formalaşacaq. Ümumiyyətlə, Ermənistan iqtisadi böhrandan çıxmaq üçün Azərbaycanın ərazi bütövlüyünü tanımalı, kommunikasiya xətlərinin açılmasına razı olmalı və normal iqtisadi əlaqələr yaratmalıdır. Əks halda, rəsmi İrəvan üçün çox çətin vəziyyət yaranacaq”.

**Kənan**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Yeni media qanununun üstünlükləri çoxdur

### Layihədə jurnalistlərin statusu və standartları barədə aydın təsəvvür formalaşır

Ötən gün Azərbaycan Dövlət İnformasiya Agentliyində (AzərTAc) "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin müzakirəsi keçirilib. Müzakirələrdə Medianın İnkişafı Agentliyinin rəhbərliyi, AzərTAc-ın İdarə Heyətinin üzvləri və struktur rəhbərləri iştirak ediblər. Yeni qanun layihəsi haqqında məlumat verən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qanunla bağlı müzakirələrin aparılmasının əhəmiyyətindən söz açıb.

O, Azərbaycanın ilk informasiya agentliyi olan AzərTAc-ın təcrübəli jurnalistlərinin fikirlərinin ümumi işin xeyrinə ola biləcəyini vurğulayaraq, onları işgüzar fikir mübadiləsinə çağırıb. Sonra Medianın İnkişafı Agentliyinin Hüquq departamentinin direktoru Rəqsanə Kərimova qanun layihəsinin təqdimatını edib.

Bildirilib ki, layihənin müddəaları Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, ölkə hüdudlarından kənarda olan və fəaliyyəti respublikamızın ərazisinə və auditoriyasına istiqamətlənmiş bütün media subyektlərinə, habelə xaricdə yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə və jurnalistlərə şamil olunur. Departament direktoru tədbir iştirakçılarını media subyektləri (audiovizual, çap və onlayn media subyektləri, informasiya agentlikləri), səlahiyyətli orqanlar, mediada yayımlanan informasiyalara dair tələblər, media subyektinin informasiyasından istifadə, media reyestri, jurnalistlərin akkreditasiyası və qanun layihəsinin digər müddəaları barədə ətraflı məlumatlandırıb.

**Mətbuat Şurası sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında yeni qanunun əhəmiyyətindən danışıb. O, ilk olaraq bildirib ki, Azərbaycanda medianın inkişafı üçün tezliklə reallaşdırılması zəruri olan bir sıra addımlar atılır:** "Bu addımların bir qismi ilk növbədə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlıdır. Belə ki, Azərbaycanda uzun müddətdir onlayn media inkişaf dövrü keçib və Azərbaycan informasiya məkanında çox böyük paya malikdir. Lakin buna baxmayaraq hələ ki, ölkəmizdə onlayn media quruluşlarının standartları, strukturları və hüquqi statusu barədə heç bir tənzimlənmə yoxdur. Bu baxımdan yeni media qanununun ən böyük üstünlüklərindən biri onlayn media quruluşlarının, xüsusi olaraq xəbər portallarının, sosial şəbəkələr üzərindən yayılan televiziyaların və digər bu kimi yeni media nümunələrinin fəaliyyətinin tənzimlənməsinə bağlıdır".

**M.Ələsgərli əlavə edib ki, yeni qanun layihəsində onlayn, yəni internet media qurumlarının strukturları və statusları barədə çox aydın təsəvvür yaradılır:** "Və bu sahənin tənzimlənməsinə imkan verir. Qanunvericilikdə mövcud olan ikinci mühüm üstünlük jurnalistlərin statusu və standartları barədə anlayışın formalaşmasıdır. Bildiyimiz kimi, burda jurnalistlər üçün, yəni jurnalist adını daşıyan şəxslər üçün bir sıra standartlar müəyyən olunub. Həmçinin onların vahid formalı vəsiqə ilə təmin edilməsi nəzərdə tutulub ki, bu da jurnalist kimi peşəkar fəaliyyət göstərən şəxslərə müəyyən proqramların, sosial proqramların və layihələrin həyata keçirilməsi üçün şərait yaradır. Bu baxımdan qanunun üstünlükləri çoxdur. Eyni zamanda qanunda jurnalistika təhsili, peşəkarlığın artırılması ilə bağlı da bir sıra çoxsaylı hallar nəzərdə tutulub".

Mətbuat Şurası sədrinin müavini qeyd edib ki, ən önəmli məsələlərdən biri də medianın vahid uçot sisteminin yaradılmasıdır: "Bildiyimiz kimi, indiyə qədər medianın ayrı-ayrı qolları üzrə, yəni elektron media, çap mediası və internet mediası üzrə uçot qeydiyyat sistemi ayrı-ayrı dövlət qurumlarında həyata keçirilirdi. Yəni Ədliyyə Nazirliyində, Vergilər Nazirliyində və Milli Teleradio Şurasında həyata keçirilirdi. İndi bu qeydiyyat sistemi vahidləşdirilir və yalnız Media İnkişaf Agentliyi tərəfindən həyata keçiriləcək. Bu da Azərbaycanda medianın vahid uçot sisteminin hazırlanmasına, media və mediada çalışanlar barədə statistik informasiya bankının hazırlanmasına yardım göstərmiş olacaq. Beləliklə, yeni qanun layihəsi Azərbaycan mediasında çoxsaylı boşluqları aradan qaldıracaq ki, bu da Azərbaycan mediasının inkişafı naminə yeni proqramlar, layihələr hazırlanması üçün çox mühüm önəm daşıyır. Bu baxımdan yeni media qanun layihəsini alqışlayırıq. Arzu edirik ki, qanun tezliklə qəbul edilib icrasına başlanılsın".

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, yeni və daha təkmil qanun layihəsi ilə mediamızın sürətli inkişafına, həmçinin bu sahədə nizama şahid olacağıq:** "Qanunla bağlı MEDİA-nın icraçı direktoru Əhməd bəylə fikir mübadiləsi aparmışıq. Əsas odur ki, bu qanun media sahəsindəki hərc-mərcliyə son qoymağa hesablanıb. Yəni kim gəldi - təsadüfi adamların özünü jurnalist kimi cəmiyyətə təqdim etməsinin qarşısı alınacaq. Jurnalist kimliyi bu qanunla konkret kriteriyalara söykənəcək. Ondan başqa, media qurumlarının da təsnifatı daha dəqiq aparılacaq".

**Qanun barədə fikirlərini "Şərq"lə bölüşən BDU-nun professoru, tanınmış teletənqidçi Qulu Məhərrəmli bildirib ki, media qanunvericiliyi ümumi media fəaliyyətinin mühüm aspektidir:** "Bu qanunda medianın statusu, iş prinsipləri, məqsəd və vəzifələri öz əksini tapmalıdır. Ölkəmizdə media qanunvericiliyi prosesi 1992-ci ildən başlayır. Lakin köhnə qanunlarda o qədər ciddi dəyişikliklər aparılıb ki, həmin qanunlar tanınmaz hala düşüb. Bu baxımdan media qanununu yeniləmək, onu günün tələblərinə uyğunlaşdırmaq, müasirləşdirmək, sürətlənən texnoloji şəraitdə medianın rolunu və fəaliyyət prinsiplərinin hüquqi əsaslarını vermək lazımdır. Burada diqqəti cəlb edən əsas məqam odur ki, qanun müasir olmalıdır. Yəni bir tərəfdən cəmiyyətin informasiyaya artan tələbatı, digər tərəfdən medianın onu necə və hansı yollarla ödəmək üçün göstərdiyi fəaliyyət vacibdir. Digər ciddi məsələ çoxşaxəli jurnalist fəaliyyətinin hüquqi əsaslarıdır. Yeni mətbuat azadlığı şəraitində bu hüquq necə reallaşdırılmalıdır? Jurnalistin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi də qanunun əsasını təşkil edir. Jurnalistin peşə fəaliyyəti üçün təkcə yaradılan hüquqi şərait yox, həm də jurnalistin məsuliyyəti müəyyənləşdirilir".

> "Daha təkmil qanun layihəsi ilə mediamızın sürətli inkişafına, həmçinin bu sahədə nizama şahid olacağıq"

**Q.Məhərrəmli vurğulayıb ki, Azərbaycan qloballaşan dünyadakı proseslərdən təcrid olunmuş deyil:** "Bu, BMT-nin qəbul etdiyi insan haqlarına, Avropanın söz və mətbuat azadlığı ilə bağlı konvensiyasına tam uyğun olmalıdır. Belə bir hüquqi nüansların müəyyənləşdirilməsi medianın fəaliyyəti üçün şərait yaradır. Bu kimi məqamların sıralanması əlbəttə ki, medianın cəmiyyətdə yerini, statusunu göstərir və jurnalistin azad fəaliyyət göstərməsi üçün hüquqi şərait yaradır. Bu baxımdan media haqqında qanunun olması çox önəmlidir. Media haqqında qanun layihəsini hazırlayarkən informasiya fəaliyyəti ilə bağlı digər qanunların uzlaşdırılması düzgün aparılmalıdır. Məsələn, bizdə informasiyalaşdırma, reklam və digərləri barədə qanunlar var ki, onlar KİV haqqında qanunla toqquşur. Ona görə də bu nüansların nəzərə alınması çox vacibdir. Media haqqında qanunun olması bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Yəni jurnalistlər öz azadlıqlarının sərhədlərini, cəmiyyət qarşısında rollarını bilməlidirlər. Elə məsələlər var ki, onlar qanunla, elələri də var ki, etik qaydalarla tənzimlənir. Hüquqi sferanı məhz "KİV haqqında" qanun müəyyənləşdirir. Amma etika ilə bağlı olan məsələlər jurnalistlərin peşə və davranış qaydaları ilə tənzimlənir. Belə olduqda media çox harmonik fəaliyyət göstərə bilir. Yeni qanun layihəsi heç bir halda mətbuatda çalışan insanların mediada hüquqlarını məhdudlaşdıra, söz və mətbuat azadlığına xələl gətirə bilməz. Məhdudlaşdırıcı maddələr qoyularkən bu məsələ mütləq nəzərə alınmalıdır".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Azərbaycanda yaradılan yeni PUA cinayətkarları təqib edəcək

*Müstəqil layihə rəhbəri Nadir Babaxanovun "GÖZ - N1" pilotsuz uçan aparat (PUA) layihəsi qalib olub*



AMEA Yüksək Texnologiyalar Parkında (YT Park) innovasiya məhsulunun və yüksək texnologiyaların hazırlanması, işlənilməsi və onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi məqsədilə biznes inkubasiya fəaliyyəti həyata keçirilir.

Sputnik Azərbaycan YT Parkdan göndərilən məlumata istinadla bildirir ki, biznes inkubasiya proqramı çərçivəsində erkən inkişaf mərhələsində olan startapların dəstəklənməsi məqsədilə inkubator rezidentliyinə seçim müsabiqəsi keçirilib.

Əsas məqsəd ideya mərhələsində olan startapları prototip hazırlamaq səviyyəsinə çatdırmaq və bazarda investor axtarışına dəstək göstərmək olub. Müsabiqədə qalib olan layihənin rəhbərinə inkubator rezidenti olmaq imkanı və bu layihənin prototip xərclərinin qarşılanması təminatı verilib.

Müsabiqənin nəticələrinə əsasən, müstəqil layihə rəhbəri Nadir Babaxanovun "GÖZ - N1" pilotsuz uçan aparat (PUA) layihəsi qalib olub.

Dron sənayesində yeni bir istiqamət təşkil edən "GÖZ - N1" layihəsi kompakt, istifadəsi asan və tamamilə modul olması ilə fərqlənir. İstənilən hava şəraitində istifadə olunması isə onu digər PUA-lardan daha üstün edəcəkdir. Video və idarəetmə paneli üçün xüsusi olaraq hazırlanmış sistem və proqram təminatı tapşırıqdan asılı olaraq kamera və idarəetmə panelini dəyişdirməyə imkan verəcəkdir.

"GÖZ - N1"in xüsusi forması və aerodinamika ilə onu istənilən ərazidə 30 saniyəyə uçuş vəziyyətinə gətirmək mümkün olacaq. Dronun kompakt ölçüsü daşınma zamanı heç bir çətinlik yaratmayacaq.

Yığılmış formada 330 x 120 mm, açıq formada 330 x 360 mm ölçülərə malik, çəkisi 2,5 kq təşkil edən bu dron tapşırıqdan asılı olaraq 3-10 km məsafəyə 4700 m yüksəklikdə 45- 55 dəqiqə ərzində 25 m/s uçuş sürəti ilə hərəkət etmək imkanına malik olacaq.

"GÖZ - N1"dən hərbi sənayedə kəşfiyyat, təkrarlayıcı (retranslyator), kamikadze kimi istifadə etmək, düşmənin yerləşdiyi artilleriya və ya bölüklərin dəqiq koordinatlarını tapmaq malik olacaq.

Fövqəladə hallar zamanı kompaktlığı və istənilən ərazidə uçma qabiliyyəti sayəsində bu dron sürət və effektivlik baxımından əvəzolunmaz keyfiyyətlərə malik olacaqdır. Keçməyin çətin olduğu yerlərdə və işçilərin təhlükəsizliyi üçün xüsusi yanğın söndürən maddədən istifadə etmək olar. O, dağlıq ərazilərdə və zəlzələ zamanı dağılmış yerlərdə xilasetmə qrupu üçün koordinat işarəsi kimi istifadə oluna bilər.

Geologiya və zoologiya sahəsində isə geoloqlar bu dronu qazıntılar üzərində uçmaq və ümumi foto və video çəkilişlər aparmaq üçün istifadə edə bilərlər. Zooloqlar heyvanları asanlıqla müşahidə etmək üçün dronun kamerasını canlıya tərəf yönəldərək "izlə" əmrindən istifadə edə bilər.

Mühafizə məqsədilə "GÖZ - N1" ərazidə geniş əhatə dairəsi olan təhlükəsizlik kamerası funksiyasını yerinə yetirə bilər. Tədbirlərdə havadan müşahidə ilə təhlükəsizliyi təmin etmək üçün, eləcə də istənilən şəraitdə cinayətkarların təqib olunması məqsədilə istifadəyə olduqca yararlı olacaqdır.

## Vaxt açıqlandı

Tağıyevin heykəlinin iki ay ərzində qoyulacağı gözlənilir



**Hacı Zeynalabdin Tağıyevin heykəli hazırdır. Bu barədə APA-ya heykəlin müəllifi Xanlar Əhmədov məlumat verib.**

O bildirib ki, heykəl il yarımdır, hazırdır, lakin pandemiya və digər səbəblərdən qoyulması yubanırdı.

X. Əhmədov heykəlin iki ay ərzində təyin olunmuş yerdə - İçərişəhər metrosunun yanında ucaldılacağının gözlənildiyini bildirib.

*Qeyd edək ki, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti Z. Tağıyevin heykəlinin hazırlanması ilə bağlı açıq heykəltəraşlıq müsabiqəsi keçirib. Tanınmışlarla yanaşı, gənc rəssam-heykəltəraşlar və əcnəbi müəlliflərin də qatıldığı müsabiqəyə təqdim olunan 26 əsərdən Xanlar Əhmədovun işi qalib olub.*

## Mətbuat prospektində yol-nəqliyyat hadisəsi baş verib





**Mətbuat prospekti ilə Məmməd Rahim küçəsinin kəsişməsində yol-nəqliyyat hadisəsi baş verib.**

"Report" xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyi məlumat yayıb.

Bildirilir ki, hadisə Mətbuat prospektində Ə.Haqverdiyev küçəsi ilə kəsişmədən M.Rahim küçəsi ilə kəsişməyədək nəqliyyat vasitələrinin hərəkətində sıxlığa səbəb olub

## Toyların ilk günü bir neçə restoran cərimələndi

Qida Təhlükəsizliyi Agentliyi monitorinqlər zamanı restoranlarda pozuntular aşkarlayıb



**Azərbaycanın Qida Təhlükəsizliyi Agentliyi (AQTA) iyunun 30-da ölkə üzrə 424 ictimai iaşə obyektində 740 monitorinq keçirilib.**

AQTA-dan "Şərq"ə verilən məlumata görə, monitorinqlər zamanı 4 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub. Aşkar edilmiş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Pozuntular aşkar edilmiş ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Xətai ?rayonu, Nobel pr., ev 15 ünvanında yerləşən, fiziki şəxs Kaya Orhana məxsus "Sahne" restoranı;
2. Bakı şəhəri, Səbail rayonu, Xəqani 10 ünvanında yerləşən, fiziki şəxs Ak Özerol MMC-yə məxsus "Prive Steak House" restoranı;
3. Bakı şəhəri, Nəsimi ?rayonu, Rəsul Rza 16 ünvanında yerləşən, fiziki şəxs Hüseynov Səyyada məxsus "Kabab house" kafesi;
4. Sumqayıt şəhəri, Sumqayıt-Novxanı yolunda yerləşən, fiziki şəxs Məmmədov Kamran İmran oğluna məxsus "Neptun" restoranı.

*Qeyd edək ki, keçən monitorinqdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət tədbirləri çərçivəsində ölkə üzrə 434 ictimai iaşə obyektində 736 reyd keçirmişdi. Monitorinqlər zamanı 24 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunaraq cərimələnmişdi.*

**Aynurə**

# 30 uşaq ailələrinə geri qayıdıb

Keçən il və cari ilin ötən dövründə sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrindən 30 uşaq ailələrinə geri qayıdıb. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.



Bildirilib ki, Sosial Xidmətlər Agentliyinin sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 saylı (Şağan qəsəbəsi) və 2 saylı (Saray qəsəbəsi) sosial xidmət müəssisələri fəaliyyət göstərir. Bu müəssisələrdə 5-18 yaşlarında 278 uşaq daimi dövlət himayəsində yaşamaqla, onlara reabilitasiya yönümlü sosial xidmətlər göstərilir.

Müəssisələrə qəbul edilmiş uşaqlar yaş, cins, xəstəlik diaqnozlarına uyğun qruplaşdırılır. Fərdi xüsusiyyətləri nəzərə alınaraq sosial xidmətin təşkil edilməsi üçün hər bir uşağın kompleks qiymətləndirilməsi aparılaraq fərdi iş planı tərtib olunur. Aktiv terapiya, oyun terapiyası, ünsiyyət terapiyası, rəqs terapiyası, mətbəx terapiyası, market terapiyası, "İnkişaf mərkəzi" və "kukla teatrı" otaqları uşaqların vaxtlarının səmərəli keçirilməsinə, həmçinin müxtəlif intellektual oyunlar, müxtəlif nağılları səhnələşdirməklə uşaqlarda zehni inkişaf etdirilməsinə kömək edir. Media nümayəndələri bu müəssisələrdə uşaqların ilkin biliklərə və peşə bacarıqlarına yiyələnmələri, fitri istedad və bacarıqlarının üzə çıxarılması üçün yaradılmış dərnəklərlə də tanış ediliblər. Bu dərnəklərdə uşaqlar müxtəlif əl işləri (rəsm, ağacdan oyma, muncuqla tikmə və s.) hazırlayır, musiqi alətlərində ifa etməklə, rəqslə, mahnı oxumaqla, habelə idman zallarında yüngül atletika, tennis, boccia, futbolla məşğul olurlar. Hər iki sosial xidmət müəssisəsinin sakinlərinin respublika və beynəlxalq səviyyəli idman yarışlarında iştirakı da təmin edilir və onlar bu yarışlarda medallar qazanırlar.

*Qeyd edək ki, ötən il bu müəssisələrdən 22 nəfər, bu ilin 6 ayı ərzində isə 8 uşaq öz ailələrinə geri qayıdıb.*

**Məlahət**

# Bu il nikah bağlayanların sayı artıb

*Ancaq pandemiyanın yaratdığı ağır iqtisadi durum və psixoloji pozuntular boşanmaların sayını da artırdı*



Ötən ilin eyni dövrü ilə müqayisədə 20 faizdən çox - 22 minə yaxın nikah dövlət qeydiyyatına alınıb. Bu barədə Ədliyyə naziri Fikrət Məmmədovun sədrliyi ilə nazirliyin kollegiya iclasında deyilib. İclasda bildirilib ki, ölkə iqtisadiyyatının inkişafı və mülki dövriyyənin artması nəticəsində notariat hərəkətlərinin sayı əvvəlki dövrlə müqayisədə 14 faiz çoxalaraq 2 milyonu ötüb.

"Həmçinin birinci yarımildə 128 minə yaxın vətəndaşlıq vəziyyəti aktları, 53.400-dən çox doğum, habelə ötən ilin eyni dövrü ilə müqayisədə 20 faizdən çox - 22 minə yaxın nikah dövlət qeydiyyatına alınıb".

**"Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova "Şərq"ə açıqlamasında deyib ki, pandemiya dövründə nikah saylarının artmasının başlıca səbəbi Azərbaycanda ailələrin yaşı çatan övladlarını evlənməyə məcbur etməsidir:** "Fikir verirsinizsə, pandemiya olsa da bu dövrdə bir çox gənclər pandemiya qaydalarına uyğun olaraq öz aralarında nikah elədilər. Bəlkə də bu, həqiqətən maddi baxımdan zəif olan ailələrə sərf elədi. Yəni belə şəraitdə evlənmək üçün o qədər də artıq xərc tələb olunmurdu. Lakin onu da etiraf edək ki, pandemiya dövründə boşananların sayı da o qədər az olmadı. Təbii ki, bu, statistikada da öz əksini tapıb. Pandemiyanın yaratdığı ağır iqtisadi durum və psixoloji pozuntular boşanmaların sayını artırdı".

**G.Səfərova qeyd edib ki, Azərbaycanda boşanma səbəbləri arasında "xasiyyətlərin uyğunsuzluğu" ilk yeri tutur:** "Həmçinin hər il ailədaxili zorakılıq səbəbindən və ya uşaqlarının olmaması səbəbinə görə də boşanma faktı qeydə alınmaqdadır. Bir də onu qeyd edim ki, bir çox insanlar adətən ailəni hansısa bir maddiyyat üzərində qurmağa meyilli olurlar ki, bu da sonda boşanmalara səbəb olur. Ta qədimdən indiyə kimi qayınana-gəlin, baldız-gəlin münasibətləri də boşanmalara öz təsirini göstərib. Düzdür, çox vaxt boşanmaları iqtisadiyyatla əlaqələndirirlər. Amma mən deyərdim ki, iqtisadi problem ən sonda gələn problemdir. O qədər kasıb ailələrimiz olub ki, dağılmayıb. Ailələrin dağılmasında başlıca faktor insanların birbirini tanınmamasıdır. Bəs bu, nədən irəli gəlir? Çünki bəzən oğlanlar sevdikləri qızlara elə vədlər verirlər ki, sanki göydəki ulduzu da gətirib ayağına qoyacaq. Amma evləndikdən sonra görür ki, bu belə deyil. Yəni müxtəlif səbəblər olur. Pandemiyada nikahların sayının artmasının başlıca səbəbi hesab edirəm ki, kasıb ailələrə maddi baxımdan sərf etməsi olub. Yəni belə evliliklər maddi baxımdan o qədər də xərc tələb etmir".

**Aynurə Pənahqızı**

## Azərbaycanda evdən qaçan gəlin tapıldı



**Cəlilabadda bir aya yaxındır itkin düşən 18 yaşlı Günayə Mirzəyeva tapılıb.**

Belə ki, ATV kanalında yayımlanan "Bizimləsən" verilişinə gələn 18 yaşlı Günayə qarşı tərəfə ittihamlar irəli sürüb. O qeyd edib ki, Bakıya gəldikdən sonra bir müddət tanımadığı qadının evində qonaq olub.

*Qeyd edək ki, Cəlilabad rayonunun Edişə kəndindən Uzuntəpə kəndinə Mirzəyevlər ailəsinə gəlin köçən Günayə Mirzəyeva bir müddət əvvəl əşyaları ilə birgə yoxa çıxıb.*

## Nanə Ağamalıyeva yenə də fotoşopun "ağını çıxardı"



**Aparıcı Nanə Ağamalıyeva sosial media hesabındakı paylaşımı ilə diqqət çəkib.**

Nanə "İnstagram" hesabında yeni fotolarını paylaşıb. Fotolarda fotoşopdan həddindən çox istifadə etməsini izləyicilər birmənalı qarşılamayaraq tənqid atəşinə tutublar. Belə ki, izləyicilərin əksəriyyəti onun fotolarla televiziyadakı görünüşü arasında fərq çox olduğunu qeyd ediblər.

## Şahdağ Milli Parkında daha bir zubr balası dünyaya gəlib

Bala sağlamdır, yerli şəraitə uyğunlaşaraq sürüyə qoşulub





**İDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan ofisi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində Azərbaycana gətirilən zubrlardan daha birinin balası dünyaya gəlib.**

Bu barədə Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova bildirib.

O qeyd edib ki, bu gün dünyaya gələn zubr 2020-ci ildə ölkəyə gətirilmiş zubrlardan birinin balasıdır və bununla zubr balalarının sayı 4-ə çatıb. Bala sağlamdır, yerli şəraitə uyğunlaşaraq sürüyə qoşulub. (Trend) "İDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış Əməkdaşlıq Sazişinə əsasən nəsli kəsilmiş zubrların bərpası, onların ölkə təbiətinə reintroduksiya olunması və artırılması məqsədilə 2019-cu ilin mayında Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisinə Avropadan 12 baş, 2020-ci ildə isə daha 5 baş zubr gətirilərək təbiətə buraxılmışdı".

# Doğulan uşaqların günahı yoxdur

Ən böyük problem nikahsız evliliklərdir



Ağdam rayonunda yaşayan 17 yaşlı qız ana olub. Rayonun Quzanlı kənd sakini, 2004-cü il təvəllüdlü S.Quliyeva iyunun 23-də hamilə vəziyyətdə Gəncə şəhər doğum evinə gətirilib. Daxili İşlər Nazirliyi (DİN) hadisəyə münasibət bildirib.

DİN-in mətbuat xidmətinin Bərdə regional qrupundan bildirilib ki, 17 yaşlı qızın uşaq dünyaya gətirməsi ilə bağlı Ağdam Rayon Polis Şöbəsinə (RPŞ) məlumat daxil olub. Məlumatla əlaqədar Ağdam RPŞ-də araşdırmalar davam etdirilir.

**Hadisəni "Şərq"ə dəyərləndirən yazıçı-jurnalist Türkan Turanın sözlərinə görə, 21-ci əsr olsa da, bu cür hallar davam edir:** "Pişik quyruğunu qovalayırmış kimi belə hadisələr durmadan təkrarlanır. Təəssüf ki, erkən yaşda nikah və ana olmaya heç bir şəkildə həll yolu tapılmır. İnsanlar özlərini inkişaf etdirmirlər. Bəzi ailələr evdən bir boğaz azalmasının hayındadırlar.

Problem yenə də dönür-dolaşır xəstə və çürük cəmiyyətin, ailələrin üzərində dayanır. "Filankəs qızını tez ərə verdi, qoy mən də verim" düşüncəsi ilə yaşayırlar. Pandemiyadır və toyların keçirilməsi məhdudlaşıb. Buna baxmayaraq, çoxları oğul evləndirib, qız ərə verməkdə israrlıdır. Son nəticədə bütün bunların acısını dünyaya gələcək uşaqlar çəkir.

Qız 17 yaşında ana olubsa, deməli, 15-16 yaşında ərə verilib. Qanunvericilikdə qızların ailə qurmaq yaşı 18-dir. Bu isə o deməkdir ki, ortada qeyri-qanuni evlilik ərsəyə gəlib. Cəmiyyətin ən böyük problemi erkən yaşda ərə verilən qızların dünyaya nikahsız uşaq gətirmələridir. Sabahısı günü ayrılıq baş verirsə, aliment problemi yaşanır. Hazırda çox qadının aliment ala bilməməsinin səbəbi sırf nikahsız evlilikdir. 17 yaşında bir qız övladına nə verə bilər axı? Onsuz da bu yaşda qızın düşüncələri kasaddır. Dünyaya uşaq gətirməklə ana olunmur. Ana övladını hərtərəfli şəkildə böyüdə bilməlidir".

**Yeganə Bayramova**

# "Rayon əhlinin ağızlarına əyirlər"

*Əməkdar artist Müşfiqi tənqid etdi*



Əməkdar artist Vahid Əliyev aktyorlar Elməddin Cəfərov, Fərda Xudaverdiyev və Müşfiq Şahverdiyev barəsində qalmaqallı açıqlama verib. lent.az-a açıqlama verən 69 yaşlı aktyor bildirib ki, Elməddini, Fərdanı və Müşfiqi aktyor hesab eləmir. O qeyd edib ki, onları özünə həmkar saymır:

"Müşfiqi ikinci kursdan İncəsənət Universitetindən çıxarıblar. Milləti təhqir etmək olmaz. Açırsan efiri, ancaq rayon əhlinin ağızlarına əyirlər. Bu nə qədər davam edəcək?

Elməddin də universitetin tarixini bitirib. Bir dəfə Elçin Əlibəyli məndən soruşdu ki, Elməddin necə aktyordur? Dedim ki, bu dəqiqə deyərəm. Başa düşdüm ki, Elçin ürək sözlərini mənim vasitəmlə demək istəyirdi. Elməddindən soruşdum ki, Ədil İsgəndərov kimidir? Söylədi ki, bilmirəm. Ona baxıram, bir ad qoya bilmirəm.

Sözün açığı, Fərda da mənə çatmır. Serialda çəkilib, adını da bilmirəm. Onların savadı yoxdur. Bu sahədə savad alsaydılar, öz yollarını tapa bilərdilər. Bu gün onlarda o savad olmadığına görə tamaşaçının da zövqünü korlayırlar. Biz peşəkarlar tamaşaçıya nə qədər zövq versək də, qeyri-peşəkarlar onların zövqünü pozur. Aşıq gördüyünü çalar. Tamaşaçı hər gün onları görür.

**Aktyor daha sonra bildirib ki, onlara müəllimlik etməyə, dərs keçməyə də hazırdır:** "Öyrənmək heç zaman gec deyil. Mən özüm Yusif müəllimdən öyrənmişəm. Burda qəbahət nəsə yoxdur. Həyatda kişi olmağı atamdan öyrənmişəm. Amma teatrda, sənətdə simanı itirməmək, kişi olmaq, bunları Yusif müəllimdən öyrəndim. Allah ona rəhmət eləsin".

V.Əliyev sonda bildirib ki, Elməddindən, Fərdadan, Müşfiqdən fərqli olaraq "Bu şəhərdə"nin aktyorları, əməkdar artistlər Rafael İsgəndərov, Coşqun Rəhimov istedadlıdır:

"Rafaellə Coşqunun aktyorluğu məni qane edir. Sadəcə, onlarda təkrarçılıq çox olur. O da ssenaristin bir nəfər olmasından irəli gəlir. Onlar o biriləri ilə müqayisə olunmazdır. Bir gün həmkarlarımdan biri Rafaellə Coşqunu tənqid edirdi, dedim ki, burda saxla. Söylədim ki, yadında saxla, Rafallə Coşqun 4 il İncəsənət Universitetinin içərisində gəzib. O abu-havada nəfəs alıbsa, demək ki, nəsə var".

# "İnsanların zövqünü öldürürlər"

Klarnet ifaçısı trenddə olan mahnılara irad bildirib



**"Mən şəxsi həyatımla əlaqəli paylaşım etməmişəm. Kiməsə "Paylaşın" deməmişəm. Jurnalistlərin icazəsiz atdığı addımlardır. Məcburən hörmətlə yanaşıram. Şübhəsiz ki, əsəbiləşirəm".**

"Şərq" xəbər verir ki, bu sözləri "MTV"yə açıqlamasında klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu söyləyib. O, özəl həyatı ilə bağlı yayılan xəbərlərdən gileylənib. Musiqiçi trenddə olan mahnılara da irad bildirib: "O ifalar məndə qıcıq yaradır. Azərbaycan musiqisinə ləkədirlər. Yaxşı ifaçıdırsa, gəlsin oxusun, bir yerdə ifa edək. Amma onların mahnıları biabırçılıqdır. Hətta cinayətkardırlar. İnsanların zövqünü öldürürlər. Trenddə olmaqlarının səbəbi cavanlar tərəfindən dinlənilmələri ola bilər. Musiqini anlayanlar üçün ayrıca "YouTube" kanalı açılsa, bir baxış da gəlməz.

Azərbaycanı dünyada təmsil edən böyük sənətkarlarımız var. Alim Qasımov, Ənvər Sadıqov, Natiq Şirinov, Emil Əfrasiyabı misal göstərmək olar. Onlar o yerə gedib çata bilməzlər. Musiqini duyub, yaxşı ifa edən insan üçün böyük dərddirlər."

**Samirə**

# Nura qiyməti endirdi

"Hazırkı vəziyyətdə əlimdən başqa heç nə gəlmir"



**Müğənni Nura Suri örnək addım atıb.**

**"Şərq" xəbər verir ki, o, feysbuk profilində bunları yazıb:** "Tədbirlərə, konsertlərə, el şənliklərinə qiyməti endirirəm. Şadlıq sarayları, restoranlar, benzin, qaz, yemək onsuz da hamısı qiyməti qaldırıb. Camaat da pandemiyaya görə pul qazanmır neçə vaxtdır. Hazırkı vəziyyətdə əlimdən başqa heç nə gəlmir".

**Samirə**

# Əməkdar artist nişanlısının üzünü gizlətdi



**Ona efirdə evlilik təklifi edən XTQ giziri ilə nişanlanan Əməkdar artist Nigar Şabanovadan xəbər var.**

*"Şərq" xəbər verir ki, o, nişanlısı ilə fotosunu paylaşıb.* Lakin sənətçi məxfiliyi nəzərə alaraq hərbçi nişanlısının üzünü gizlədib.

*Qeyd edək ki, bir müddət öncə Nigar Şabanovanın nişanlısından ayrılması ilə bağlı xəbərlər yayılıb. Lakin o, bu şayiələri yalanlayıb.*

# İbrahim Borçalı yenə mərhum oğlunu yad etdi



**Müğənni İbrahim Borçalı instaqramda mərhum oğlu Rəhim ilə arxiv videosunu paylaşıb.**

"Şərq" xəbər verir ki, o, posta bu sözləri yazıb: "İki il əvvəl çəkdiyim videonu paylaşmaq istədim. O günlərə qayıtmaq istərdim".

*Qeyd edək ki, Rəhim ötən il avtomobil qəzasında 21 yaşında dünyasını dəyişib.*

**Samirə**

# Xalq artisti sağalıb, Vətənə döndü

*"Xalqa indi daha çox xidmət etməliyəm"*

Xərçəng xəstəliyinə qalib gələn Xalq artisti Ağadadaş Ağayev Vətənə qayıdıb. O, hava limanında jurnalistlərin suallarını cavablandırıb.



"Şərq" xəbər verir ki, müğənni çətin günlərində aparıcı Hacı Nuranın onun yanında olduğunu söyləyib: "İndi özümü əla hiss edirəm. Bu xəstəliyi Allahın bizə neməti, imtahanı kimi qəbul etdik. Onunla sağollaşdıq, yola saldıq getdi. Azərbaycanda ümumilikdə isə 4 dəfə əməliyyat olundum. Sonda nəticələr yaxşı gəldi. Xəstəliyimi öyrənən kimi özümü Allaha təslim etdim. "Uf" da demədim. Gülə-gülə xəstəliyi keçirdim. Ətrafıma sıxıntı yaratmamağa çalışdım. Xalqımın qarşısında baş əyirəm. Onların gözəl arzularını, dualarını, hamısını duymuşam. Fəxr edirəm ki, belə bir millətin övladıyam. Xalqa daha çox xidmət etməliyimişəm. Bundan sonraki həyatımda bunu özüm üçün şüar edəcəm. Sənətçilərin hamısı mənimlə maraqlandılar. Sağ olsunlar".

**Samirə**

# "Rayona getsə, bu uşaq öləcək"

Elgiz xəstə Tural üçün ağladı



**Hər iki böyrəyi çürüyən 23 yaşlı Tural adlı gənc "Elgizlə izlə" proqramına müraciət edib.**

"Şərq" xəbər verir ki, aparıcı Elgiz Əkbər Tural üçün ağlayaraq tamaşaçılara yalvarıb: "Çox imkansız ailədir. Uşağın böyrəklərində çürümə gedir. Mülaicəsinə, iynə-dərmanlarına pul lazımdır. Günü-gündən Turalın vəziyyəti pisləşir. Bir gündən bir dializə getməli olur. Bakıya gəlməsi, xəstəxanada müalicə olunması üçün pul gərəkdir. Atası ilə Turalı birgə Bakıda saxlamalıyıq, onlara qalmağa yer lazımdır. Görək nə edə bilirik? Rayona getsə, bu uşaq öləcək. Ona qəti imkan verməyəm. Görürsüz, necə böyük məsuliyyətdir. Mən çox xahiş edirəm, yalvarıram. O, bizim verilişə gəldi. Tural rayona qayıdıb ölsə, yaşaya bilmərəm. Çox pis olaram".

**Samirə**

# Hamı o adamı tanıyacaq

Xaricdə müğənniləri söydürən sənətçinin adı bilinəcək



**Bir neçə gündür müğənni Afət Fərmanqızı açıqlamaları ilə gündəmə gəlir.**

O, bir xanım həmkarının müğənniləri xaricdə yaşayan azərbaycanlılara söydürdüyünü söyləyib. Sənətçi həmin şəxsin adının "N" hərfi ilə başladığını deyib. Sosial şəbəkə istifadəçiləri onun Nazənin Salayeva olduğunu düşünüb. Lakin N.Salayevanın prodüseri Pərviz Fəqan A.Fərmanqızı ilə dost olduqlarını, müğənninin başqa birindən bəhs etdiyini bildirib.

**Biz də A.Fərmanqızı ilə əlaqə saxlayıb məsələyə aydınlıq gətirdik. O, "Şərq"ə bunları söyləyib:** "Ad çəkmək mənim ağlıma gəlmir? Adını hallandırmaq məhkəmə predmeti deməkdir. Mən savadlı insanam. Ona görə ismini söyləmirəm. Zamanla hamı biləcək. Kiminsə nə dediyi mənə maraqlı deyil".

**Samirə**

# 6 xəstəliyi bilirdinizmi?

*Günəş şüaları gözlərdə çox ağır fəsadlar yaradır*



(Əvvəli səh: 16-da)

## 2. Katarakta

Katarakta göz bəbəyinin arxasında yerləşən və görmədə vacib rol oynayan büllurun şəffaflığını itirərək bulanıqlaşmasıdır. Günəş şüalarının aşırı təsiri ilə göz büllüru şəffaflığını itirə bilər. Günəş şüalarının təsiri ilə kataraktanın daha çox yaşlı insanlarda yarana biləcəyi bildirilir, lakin gənc yaşlarda da baş verə bilər. Tədqiqatlar göstərir ki, uzun müddət günəş şüalarına məruz qalan insanlarda kataraktanın yaranma riski 3.5dəfə daha artıqdır.

## 3. Gözdə sarı nöqtə xəstəliyi

Yaşla əlaqədar yaranan sarı nöqtə xəstəliyi günəş şüalarının gözdə əmələ gətirdiyi bir başqa ciddi problemdir. Gözün görmə mərkəzi - bəbəklərdəki sarı nöqtənin əmələ gətirdiyi sahə günəşin ultrabənövşəyi şüalarının mənfi təsirinə məruz qalır.

## 4. Göz səthində ət böyüməsi

Bu, göz ağını əhatələyən pərdənin günəş şüalarının mənfi təsirinə uğrayıb qalınlaşmasıdır. Buna xalq arasında "göz səthində ət böyüməsi" də deyilir. Qızartı, ağrı, batma və getdikcə yüksək astiqma xəstəliyinə səbəb ola bilər. Bu cür hallara Günəş istisinin daha bol olduğu bölgələrdə rast gəlinir.

## 5. Göz qapağı xərçəngi

Göz qapaqları günəş şüalarından zərər görə bilər. Günəş şüaları göz qapaqlarında qarışıq kütlələrə və ya bədxassəli şişlərə yol aça bilər. Bu zaman göz qapağındağı şişlər əməliyyatla götürülür. Amma əməliyyat zamanında aparılmalıdır.

## 6. Göz allergiyası

Göz allergiyası, tibdəki adıyla göz konyuktiviti, gözlərdə yanma, iynə batması effekti, qaşınma, sulanma, göz ətraflarında şişkinlik və qızartılıqla müşahidə olunur. Bu, görməni pozan, görmə qabiliyyətinin getdikcə azalmasına səbəb olan xəstəlikdir. Sadalanan xəstəliklər nəzərə alınmaqla yay mövsümündə günəş şüalarından qorunmaq məsləhətdir. Bunun üçün də yalnız sertifikata malik günəş eynəkləri taxılmalıdır. Eynəklərin gözləri və göz ətrafını yaxşıca tutması gərəkdir.

**Hazırladı: Məlahət**

## Azercell-dən 4G MiFi ilə daha sürətli internet bağlantısı!

### Hədiyyəli MiFi cihazı eyni anda 10-a qədər istifadəçiyə rahatlıqla internet şəbəkəsi paylaya bilir




**Keyfiyyətli, eyni zamanda effektiv internet bağlantısının son dərəcə əhəmiyyətli olduğunu nəzərə alaraq, ölkənin lider mobil operatoru "Azercell Telekom" bu sahədə rahat və əlverişli həlləri təqdim etməkdə davam edir.**

Şirkətin hazırda keçirilən kampaniyası çərçivəsində yeni MiFi M25 cihazı ilə birgə abunəçilər həm də 50GB həcmində internet paketini hədiyyə olaraq əldə edə biləcək. Cəmi 99 AZN dəyərində olan bu təkmilləşdirilmiş cihaz eyni anda 10-a yaxın istifadəçi üçün sürətli internet bağlantısını təmin edir.

Kiçik ölçülü olması bu cihazı daim yanında gəzdirməyə, istədiyin vaxt istifadə etməyə şərait yaradır. Avadanlığın daşınması kimi istifadəsi və quraşdırılması da kifayət qədər rahatdır. İstifadəçilər üçün önəmli cəhətlərdən biri də MiFİ avadanlığının enerjiyə qənaət funksiyasıdır - cəmi bir dəfə tam enerji ilə yüklənməsi cihazın 8 saata qədər uzun müddət davamlı işləməsini təmin edir. İstifadə edilmədikdə cihazı avtomatik yuxu rejiminə quraşdırmaq, bununla da həm internetə, həm də enerjiyə qənaət etmək olar.

*Qeyd edək ki, kampaniya çərçivəsində hər bir 4G MiFi cihazla birgə 1 ədəd "Data tarifi"-ndə olan Fakturasız xətt nömrəsi təqdim olunur. Abunəçilər cihazı Azercell Eksklüziv Mağazaları və Azercell-in rəsmi diler dükanlarından əldə edə bilərlər.*



## Dünyanın ən yaşlı sakini uzun yaşamağın sirrini açıqlayıb

**Puerto Rikonun sakini Emilio Flores Markes dünyanın hazırda yaşayan ən yaşlı kişisi kimi "Ginnesin Rekordlar Kitabı"na düşüb.**

"Report" "Guinness World Records"a istinadən xəbər verir ki, 1908-ci ilin 8 avqust tarixində dünyaya gələn Markes ailədə 10 uşağın böyüyü olub, ailənin şəkər qamışı fermasında çalışıb. 75 illik evliliкdən sonra həyat yoldaşını 2010-cu ildə itirən Markes dörd övlad, beş nəvə, beş nəticə sahibidir. Övladlarının ikisi hələ də sağdır.

Uzun yaşamağın sirrini bölüşən Markes həmişə sevgini kinkudurətdən üstün tutduğunu deyib: "Atam məni sevgi ilə böyüdüb, hamını sevməyi öyrədib. Mənə də, bacı-qardaşlarıma da yaxşılıq etməyi, əl tutmağı, bölüşməyi nəsihət edib".

Bundan əvvəl dünyanın ən yaşlı sakini olmuş rumıniyalı Dumitru Komenesku 2020-ci il 27 iyun tarixində, 112 yaşında dünyasını dəyişib.

## "Nar" abunəçiləri üçün "Vətəndaş" tipli "Asan İmza" xidmətinin aylıq abunə haqqı ləğv edilir

"Nar" abunəçiləri üçün 1 iyul 2021-ci ildən etibarən "Vətəndaş" tipli "Asan İmza" xidmətinin aylıq abunə haqqı ləğv edilir. Bu tarifdən 20 iyun 2020-ci ildən xidmətə qoşulan və 1 iyul 2021-ci ildən etibarən yeni qoşulan vətəndaşlar yararlana biləcəklər.




Xatırladaq ki, bu xidmətin aylıq abunə haqqı 2.50 AZN təşkil edirdi. "Nar" abunəçiləri "Asan İmza" xidmətini mövcud olan mobil nömrələrində aktivləşdirə bilərlər və bu zaman yeni nömrə əldə etməyə ehtiyac yoxdur. Sadəcə "Nar" Xidmət mərkəzlərinə yaxınlaşaraq, "Asan İmza" xidmətini dəstəkləyən "SIM" kart almaq üçün mövcud nömrənin dublikatını əldə etməlidirlər. Qeyd edək ki, Azərbaycan vətəndaşları üçün elektron xidmətlərə geniş imkanının təmin edilməsi məqsədilə B.EST Solutions şirkəti bütün mobil operatorlar, eləcə də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə birlikdə bu qərarı verib.

İstifadəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanacaq və fiziki olaraq, həmin qurumlara müraciət etməmək imkanına sahib olacaqlar.

Qeyd edək ki, sahibkarlar və dövlət qulluqçuları üçün nəzərdə tutulan "İş" və "Dövlət" tipli "Asan İmza" xidmətinin qiyməti və aylıq abunə haqqı dəyişilməz olaraq qalır.

Xatırladaq ki, 2020-ci ilin iyun ayında aylıq abunə haqqı saxlanılmaqla, 3 il müddətinə "Asan İmza" xidmətinin ("Vətəndaş" tipli "Asan İmza" xidmət növü) ödənişsiz təqdim edilməsi barədə də qərar qəbul edilib. Bu xidmətin aktivləşdirilməsi isə 18 AZN təşkil edirdi.

"Nar" abunəçiləri ətraflı məlumatı https://www.nar.az/asanimza/ internet səhifəsindən əldə edə və ya "1847" Asan İmza Çağrı Mərkəzinə zəng edərək, eləcə də info@asanimza.az elektron poçt ünvanına yazaraq suallarına cavab ala bilərlər.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1179



# Professordan qorxunc açıqlama...

Antalya Qahirə kimi isti olacaq

**Boğaziçi Universitetinin İqlim dəyişikliyi və siyasəti araşdırma mərkəzinin müdiri, professor Mehmet Levent Kurnaz maraqlı açıqlama ilə çıxış edib.**

"Şərq" "Haberglobal"a istinadən bildirir ki, o, 2100-cü ildə Antalya iqliminin eyni ilə Qahirə kimi isti olacağını deyib.

Professor, həmçinin son illər qlobal istiləşməyə istinad edərək tendensiyanın gələcəkdə daha da artacağını vurğulayıb.

**Kənan**

# İnək sağan qadını "tok" vurdu

36 yaşlı 4 uşaq anasının həyatını xilas etmək mümkün olmayıb



**Kahramanmaraşın Elbistan bölgəsində avtomat sağım maşını ilə süd sağan 36 yaşlı Döndü Bozdoğanı elektrik vurub.**

Hadisə axşam saatlarında Ağlıca Məhəlləsində baş verib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, axurda qışqırıq səsi duyub tələsik o tərəfə yüyürən ailə üzvləri 36 yaşlı qadını yerdə uzanıqlı halda görüblər. Deyilənə görə, Döndü Bozdoğan adətən hər gün axşam saatlarında gördüyü işi - inəkləri sağmaq üçün evlərinin yanındakı axura gedib. Qadın inəkləri avtomat sağım maşını ilə sağırmış. Bu dəfə isə faciə yaşanıb. Qadın inəyi sağarkən avtomat maşında elektrik sızması əmələ gəlib və qadın yerindəcə can verib. Döndü Bozdoğan Elbistan Dövlət Xəstəxanasına aparılıb, lakin həkimlərin səyinə baxmayaraq 4 uşaq anasının həyatını xilas edə bilməyiblər.

**Məlahət**

# Baba bağçadan başqa uşağı evə apardı

Uşağın öz valideynləri artıq polisə müraciət etmişdi



**İtaliyada nəvəsini uşaq bağçasından götürmək istəyən baba fərqinə varmadan yanlış uşağı evə aparıb. Hadisə Arezzo şəhərində baş verib.**

"Şərq" "Sabah.com"a istinadən bildirir ki, yaşlı kişi təsadüfən uşaq bağçası yerinə yaxınlıqdakı körpələr evinin zəngini çalıb. Adı açıqlanmayan babaya nəvəsi ilə eyni adı daşıyan, ancaq bir-iki yaş kiçik olan uşaq əmanət edilib. Baba evə çatdıqdan sonra uşağın səhv verildiyi ortaya çıxıb. Evə fərqli bir uşağın gəldiyini anlayan ailə dərhal hərəkətə keçib. Yanlış uşağın valideynləri qızlarını tapa bilmədikdə artıq polisə müraciət etmişdi. Yaşlı kişinin əsl nəvəsi isə uşaq bağçasından götürülməsini gözləyirdi. Arezzo Bələdiyyəsi uşaq bağçasındakı müəllim və tərbiyəçi barəsində intizam istintaqı başladıb. Çünki qohumlar və ya baxıcılar uşağı götürmək üçün etibarnamə təqdim etməli və şəxsiyyətlərini elan etməlidirlər.

**Yeganə**



# 6 xəstəliyi bilirdinizmi?

*Günəş şüaları gözlərdə çox ağır fəsadlar yaradır*



**Yay mövsümündə hər kəs mümkün qədər çox günəşlənməyə, bununla da D vitamini depolamağa çalışır.**

Lakin hər şeydə həddin aşılması əks təsir yaratdığı kimi, günəş şüalarının aşırı təsirinə məruz qalmaq da orqanizmdə bir sıra problemlərə yol açır. Bu dəfə günəş şüalarının gözlərə mənfi təsirindən danışacağıq. "Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, göz xəstəlikləri professoru doktor Evren Baca günəş şüalarının gözlərdə əmələ gətirdiyi 6 göz xəstəliyi barədə xəbərdarlıq edir. Göz xəstəlikləri hansılardır və gözlərimizi qorumaq üçün nə etməliyik?

## 1. Kornea yanığı



Günəş şüalarının göz səthini örtən "kornea" adlı şəffaf təbəqəsinin zərər görməsi, "kornea yanığı" adlanır. Əgər bu təbəqə həddindən artıq günəş şüalarının təsirinə məruz qalıbsa, 6-12 saat sonra gözdə şiddətli ağrı, iynə batması effekti və sulanma yaranır. Müalicədə gecikmə görmə qabiliyyətinin itirilməsiylə nəticələnə bilər. Kornea yanığı daha çox səhər saat 08:00-10:00 arası və günorta 14:00-16:00 arası yarana bilir. Ona görə də məhz günün bu saatlarında günəş şüalarından qorunmaq lazımdır.

*(Davamı səh: 15-də)*

**Hazırladı: Məlahət**

# Maqnit çənə kilidi hazırlandı

Ancaq bəyənənlər çox az oldu



**Yeni Zelandiyanın Otaqo Universitetinin tədqiqatçıları maraqlı bir cihaz hazırlayıblar. Cihaz piylənmə ilə mübarizə üçün maqnit çənə kilididir.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, kilidi taxanların ağızları yalnız 2 millimetr açılır. Bu insanlar yalnız maye istehlak edə bilərlər. İngiltərədəki elm adamları ilə birlikdə hazırlanan cihaz qatı qida istehlakının qarşısını alır. Dişlərə quraşdırılmış maqnit hissələr çənənin açılmasına mane olur. Tədqiqatda iştirak edən şəxslər maqnit kilidindən istifadə zamanı narahatlıq hiss etdiklərini və danışıqlarında problem yaşadıqlarını bildiriblər. Bəzi hallarda hətta utandıqlarını da söyləyiblər. Bəziləri sosial mediada cihazla əlaqəli xoş olmayan fikirlər səsləndirib. İnsanların əksəriyyəti maqnit çənə kilidini orta əsrlərdə işgəncə cihazları ilə müqayisə ediblər: "Maye pəhrizi saxlamaq üçün belə işgəncə cihazına ehtiyacımız yoxdur".

Otaqa Universiteti sosial şəbəkələrdəki fikirlərə münasibət bildirib: "Maqnit cihazı sürətli və ya uzunmüddətli bir kilo vermə vasitəsi deyil. Əməliyyata ehtiyacı olan və arıqlayana qədər əməliyyata girə bilməyən insanlara kömək etmək üçün hazırlanıb".

**Yeganə Bayramova**



# Yaxtanın qiyməti 3 milyon avrodur

Aktrisa qayığı ilə tətilə çıxdı



**Bodrumda istirahət edən türkiyəli aktrisa Pınar Altuğ milyon dollarlıq yaxtası ilə diqqət çəkib.**

Axşam.az xəbər verir ki, 46 yaşlı aktrisanın 34 metr uzunluğundakı dəniz nəqliyyatının qiyməti 3 milyon avrodur.

Pınar Altuğ istirahətə qızı Su və dostları ilə yollanıb.